AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 3 (1348), 23 - 29 yanvar 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## 2018 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasında keçiriləcək 2018 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2018-ci il martın 15-dən mayın 15-dək Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında yerləşən struktur bölmələrində viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən kart və ya digər sənəd;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən kart;

2.3. 2018 Formula 1 Azərbaycan Qran Pri yarışına bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2018 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə "Formula One Management Limited" şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2018 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2018 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 yanvar 2018-ci il.***

## Milli Olimpiya Komitəsində görüş keçirilib



Yanvarın 22-də Milli Olimpiya Komitəsinin inzibati binasında Beynəlxalq Hərbi İdman Şurasının (BHİŞ) nümayəndə heyəti ilə görüş keçirilib. Tədbirdə Beynəlxalq Hərbi idman Şurasının prezidenti polkovnik Abdullahakim Mohamed İsa Alşino, BHİŞ prezidentinin xüsusi məsləhətçisi Konstantinos Kousantas, Beynəlxalq Hərbi İdman Şurasının Qara dəniz, Balkan və Cənubi Qafqaz ölkələri üzrə koordinasiya ofisinin rəisi Nevzat Varol və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun rəisi, Azərbaycan Respublikası Silahli Qüvvələrinin Beynəlxalq Hərbi İdman Şurasındakı nümayəndə heyətinin rəhbəri Rəşad Quliyev həmçinin, baş katib Ağacan Abiyev, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə iştirak edib.

Görüş zamanı MOK və BHİŞ arasında əlaqələrin genişləndirilməsi, təlimlərin keçirilməsi, idmançıların hərbi yarışlarda iştirakı mövzusunda müzakirələr aparılıb. Tədbirdə Beynəlxalq Hərbi İdman Şurasının dəstəyi ilə keçirilmiş yarışlar və uğurlu nəticələr qeyd olunub. Sonda MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə Beynəlxalq Hərbi İdman Şurasında idmanın inkişafında gördüyü xidmətlərə görə orden ilə təltif olunub.

## MOK-un baş katibi İcraiyyə Komitəsinin iclasında iştirak edib

Yanvarın 17-18-də İsveçrənin Lozanna şəhərində Avropa Olimpiya Komitəsi (AOK) İcraiyyə Komitəsinin yeni heyətinin ilk iclası keçirilib. Tədbirdə ölkəmizi AOK-un İcraiyyə Komitəsinin üzvü və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə təmsil edib.

İclasda Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, AOK-un prezidenti Janez Koçijançiç, baş katib Rafael Paqnozzi, vitse-prezident Nils Niqaard və İcraiyyə Komitəsinin üzvləri iştirak ediblər. Tomas Bax AOK-un İcraiyyə Komitəsinin yeni üzvlərinə uğurlar arzu edib.

AOK-un iclası çərçivəsində adı çəkilən təşkilatın baş katibi və xəzinədarının hesabat çıxışları dinlənilib. Atletlər Komissiyasının mühazirə çıxışları gündəlikdə olan məsələlər sırasında olub.

İclasda həmçinin Avropa Oyunları və Avropa Yeniyetmələrinin Olimpiya Festivalı, həmçinin Avropa Olimpiya Komitəsinin 39-cu seminarı və Pxençxan-2018 Qış Olimpiya Oyunları müzakirə olunub.

PyeongChang 2018™

**XXIII Qış Olimpiya Oyunlarına 17 gün qalır**

## Xəbərlər

### Atletimiz Latviyada qızıl medala layiq görülüb

Latviyada atletika üzrə "Kuldiga Catherines Cup" beynəlxalq turniri keçirilib. Səkkizinci dəfə təşkil olunan yarışda ölkəmizi 60 metr məsafəyə sədlərlə qaçış yarışlarında Rahib Məmmədov təmsil edib.



Məşqçi Elvin Əliyevin rəhbərliyi altında mübarizə aparan atletimiz 8 saniyə nəticə ilə turnirin qızıl medalına sahib olub. İlk üçlüyü litvalı idmançılar Saulius Rapolas və Vrasinskas Martinas tamamlayıblar.

Qeyd edək ki, turnirdə 17 ölkədən 200-dən artıq atlet qalib adı uğrunda yarışıb.

### *Bədii gimnastımız Osloda bürünc medal alıb*

Norveçin Oslo şəhərində bədii gimnastika üzrə "Asker Cup" adlı beynəlxalq turnir keçirilib.

Ölkəmizi bu yarışlarda gənclər və böyüklər yaş kateqoriyasında gimnastlar təmsil ediblər. Yığma komandamızın gənc gimnastlarından Dərya Farşbafşəhriyari ən yaxşı nəticəsini lent ilə göstərərək, 4-cü yeri tutub. Onun komanda yoldaşı Yelizaveta Luzan isə gürzlərlə çıxışına görə 5-ci nəticə göstərib.

Turnirdə komandanın hesabına yeganə medalı böyüklər arasında çıxış edən Dərya



Sorokina yazdırıb. Gimnastımız halqa ilə final çıxışında yalnız Sloveniya və Ukrayna təmsilçilərindən geri qalaraq bürünc medala layiq görülüb.

## Azərbaycanda Olimpiya Hərəkatının təbliği uğurla davam etdirilir



Milli Olimpiya Komitəsinin (MOK) yaradılmasının 25 illik yubileyi ərəfəsində gənclər arasında Olimpiya Hərəkatının təbliğinə, Azərbaycanın Olimpiadada qazandığı uğurlara dair www.mok25.az veb-səhifəsi yaradılıb. İnteraktiv oyunlarda Azərbaycanın fəxri olan Olimpiya çempionları haqqında məlumat əldə etmək, mövcud bilikləri genişləndirmək mümkündür.

Oktyabr ayından başlayan interaktiv oyunlar şəklində keçirilən onlayn yarışlar böyük marağa səbəb olub. İlk ayın qalibi adını Günel Əliyeva qazanıb. Növbəti aylarda isə Zamiq Xurşudov və Səbuhi Əlizadə birinci yeri tutub.

Qaliblər MOK-un qiymətli hədiyyələri ilə təltif ediliblər. Yarışın sonuncu mərhələsi hər bir ayın qaliblərinin iştirakı ilə keçirilib. Burada Olimpiya Hərəkatının və Azərbaycan çempionları haqqında dərin biliyə sahib Günel Əliyeva qələbə qazanıb. O, MOK-un 25 illiyi münasibətilə hazırlanan və məhdud sayda buraxılan xüsusi medalla təltif olunub. Qalibə hədiyyəni Milli Olimpiya Komitəsinin baş katibi, Azərbaycan Boks Federasiyasının vitse-prezidenti Ağacan Abıyev təqdim edib.

"İnanırıq ki, ölkəmiz dünya çempionatına uğurla ev sahibliyi edəcək"

*Azərbaycan Qran-prisi beynəlxalq avtoidman sərgisində təmsil olunub*

Səh. 4

Azərbaycan futbolu-2017: "qızıl dubl", debütdə zəfər, ÇL-in qrupu və rekordu yeniləyən millimiz

Səh. 7

Milli Paralimpiya Komitəsinin ötənilki fəaliyyəti müzakirə olunub

Səh. 2

*Bakıda gimnastika üzrə məşqçilik kursları keçirilir*

Xorvatiya Qran-prisindəki uğurlu çıxış yüksək qiymətləndirilib

*Favoritlər qələbə qazandılar*

Səh. 2

AZƏRBAYCAN RESPUBLIKASININ PREZIDENTI YANINDA KÜTLƏVI INFORMASIYA VASITƏLƏRININ INKIŞAFINA DÖVLƏT DƏSTƏYI FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

**Rövşən Bayramov:**

"Olimpiya çempionu yetişdirmək istəyirəm"

Səh. 6

## Milli Paralimpiya Komitəsinin ötənilki fəaliyyəti müzakirə olunub



Yanvarın 19-da Milli Olimpiya Komitəsinin binasında Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin (ARMPK) ümumi yığıncağı keçirilib. Yığıncaqda Milli Paralimpiya Komitəsinin 2017-ci ildəki fəaliyyəti və qarşıda duran vəzifələr, qurumun Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi və cari məsələlər müzakirə edilib.

APMPK-nın prezidenti İlqar Rəhimov müzakirə olunacaq məsələlər barədə yığıncaq nümayəndələrinə məlumat verib.

Sonra qurumun birinci vitse-prezidenti Natiq Qasımov ARMPK-nın ötənilki fəaliyyəti və qarşıda duran vəzifələr haqqında məruzə ilə çıxış edib.

Daha sonra beynəlxalq əlaqələr və marketinq şöbəsinin müdiri Cavid Mikayılovun qurumun Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi barədə məlumatı dinlənilib.

Sonda təşkilatı məsələlərə baxılıb. Yığıncaqda komitənin baş katibi Şaiq Həmidov tutduğu vəzifədən və İcraiyyə Komitəsinin üzvlüyündən azad edilib. Kamal Məmmədov səs çoxluğu ilə ARMPK-nın baş katibi və İcraiyyə Komitəsinin üzvü seçilib.

### Boks

## Ən güclü boksçular müəyyənləşdi



Gənc boksçular arasında keçirilən Azərbaycan birinciliyinə yekun vurulub. Bakı və respublikanın müxtəlif bölgələrini təmsil edən 31 komandanın iştirak etdiyi yarışda 140 idmançı mükafatlar uğrunda mübarizə aparıb. Boks Mərkəzində təşkil edilən yarışda 10 çəki dərəcəsində çempion və medalçılar müəyyənləşib. Həlledici qarşılaşmalar günü 20 Yanvar şəhidlərinin xatirəsi 1 dəqiqəlik sükutla yad olunub. Turnirin komanda hesabında DİN İC birinci yeri tutub. İkinci pillədə "Rabitə" İK qərarlaşıb. "Gilan" İK isə üçüncü yeri tutub. Birinciliyin qalibi adını qazanan Maqsud Xasmətov (49 kq), eyni zamanda yarışın ən texnikalı boksçusu seçilib.

### Xəbərlər

## Mütəxəssislərimiz Avstriyada beynəlxalq seminarda

Avstriyanın Mittersil şəhərində Beynəlxalq Cüdo Federasiyasının (İJF) təşkilatçılığı ilə hakimlər və məşqçilər üçün beynəlxalq seminar keçirilib. İJF-in prezidenti Marius Vizerin də iştirak etdiyi seminar həm nəzəri, həm də praktiki hissədən ibarət olub. Tədbirdə cüdonun yeni qayda və qanunlarının tətbiqi əyani şəkildə göstərilib, geniş müzakirə edilib, fikir mübadilələri aparılıb.

Beynəlxalq seminarda Azərbaycan Cüdo Federasiyasının Hakimlər Komitəsinin sədri, beynəlxalq dərəcəli hakim Fariz Hüseynov və regionlarda cüdonun inkişafı sektorunun müdiri, məşqçi Tərlan Poladov da iştirak edib.

## Favoritlər qələbə qazandılar

Qadın həndbolçular arasında Azərbaycan çempionatında mübarizə davam edir. Yanvarın 21-də keçirilən hər iki qarşılaşmada favoritlər qələbə qazanıblar. "Azərsu" komandası "İdman Akademiyası" kollektivini 27:20 hesabı ilə məğlub edib. "Gənclər-birliyi"-"Qarabağ" görüşü isə qonaqların 35:26 hesablı qələbəsi ilə başa çatıb.

## İdmançımız Dünya kuboku yarışlarına hazırlaşır

Qılıncoynatmanın şpaqa növü üzrə çıxış edən idmançımız Kənan Əliyev dünya kuboku yarışlarına hazırlaşır. İdmançımız baş məşqçi Çingiz Mustafayevin rəhbərliyi altında Ukraynanın paytaxtı Kiyevdə təlim-məşq toplanışında iştirak edir. Şpaqaçımız yanvarın 25-26-da Almaniyanın Haydenhaym şəhərində keçiriləcək dünya kuboku yarışlarında mübarizə aparacaq.

### Gimnastika

## Bakıda gimnastika üzrə məşqçilik kursları keçirilir

***Bakıda Azərbaycan Gimnastika Federasiyası ilə Beynəlxalq Gimnastika Federasiyası (FİG) Akademiyasının birgə təşkilatçılığı ilə yerli məşqçilər üçün məşqçilik kursları keçirilir.***



Kişi idman gimnastikası üzrə birinci dərəcəyə aid nəzəriyyə və təcrübə hissələrindən ibarət olan kurslarda biomexanika, anatomiya və psixologiya mövzuları üzrə təlimlər aparılır. Təlimləri FİG-in mütəxəssisləri Levit Andrey (Polşa) və Marqus Da Silva Franca Lourenso Adalberto (Portuqaliya) həyata keçirirlər.

Andrey Levit kurslarla bağlı deyib: "Təlimlərdə birinci səviyyəli məşqçilik kursları keçirilir. Səkkiz gün ərzində təlimçilər nəzəri və praktiki məşğələlər keçdikdən sonra imtahan verəcəklər. FİG bu kursları məşqçilərin yeni texnikanı bilməsi üçün hazırlayıb. Məşqçilərin öyrənmək, yeni tendensiyaları bilmək istəkləri diqqətimi çəkdi. Azərbaycanda gimnastika yüksək səviyyədə inkişaf edir və dünyanın ən yaxşı idman infrastrukturu mövcuddur. Burada idmançılar üçün yeni məşq zalları, müasir idman avadanlıqları fəaliyyət göstərir".

Yanvarın 23-nə qədər davam edəcək kurslarda 10 yerli məşqçi ilə yanaşı, Misirdən gəlmiş üç məşqçi də iştirak edir. İmtahanlardan uğurla keçmiş nümayəndələr məşqçilik üzrə birinci beynəlxalq dərəcəyə yiyələnəcəklər.

Məlumat üçün bildirək ki, bundan əvvəl bədii gimnastika üzrə 3-cü dərəcəli məşqçilik kursları keçirilib.

### Xatirə turnirləri



## 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş açıq birincilik

Yanvarın 20-də Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin "Gömrükçü" İdman Klubunun 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş şaolin döyüş sənəti üzrə açıq birinciliyi keçirilib. 111 saylı orta məktəbin idman zalında keçirilən yarışda 13 komandadan 168 idmançı bacarığını nümayiş etdirib. Birincilikdə "Gömrükçü", "Məhəmmədəli", "Tornado", "Vin Çun", "Nərimanov", "Əsəd", "Sulutəpə", "Sülh", "Şaolin", "Dəmir Yumruq", "Çempion", "Murovdağ", "Ruhi" İdman klublarından 2001-2003-cü, 2004-2006-cı, 2007-2009-cu, 2010-2012-ci illər təvəllüdlü kiçikyaşlı yeniyetmələr, yeniyetmələr və gənclər mübarizə aparıblar.

Yarışın açılış mərasimində Azərbaycan Şaolin Döyüş Sənəti Federasiyasının prezidenti Rafiq Əliyev, "Gömrükçü" İK-in direktoru Ramil Məmmədov iştirak ediblər. Rafiq Əliyev çıxış edərək yarışın təşkilinə görə Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayevə öz minnətdarlığını bildirib. O qeyd edib ki, vətən torpaqlarının azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu daim qəlbimizdə yaşayacaqdır.

20 Yanvar faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra yarış açıq elan edilib. Gərgin idman mübarizəsi şəraitində keçən yarışların yekununda qaliblər müəyyənləşib.

Yarışda fərqlənən idmançılar DGK İSM "Gömrükçü" İK tərəfindən medal, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

* * *

"Alüminiumçu" İdman Evində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş sambo üzrə yeniyetmələr (2000-2001), gənclər (1998-1999) və kişilər arasında şəhər çempionatı keçirilib. Müxtəlif çəki dərəcələri üzrə keçirilən yarışda ən güclü samboçuların adları müəyyənləşib.

Yarışların qalib və mükafatçıları Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərmanı və hədiyyələri ilə təltif olunublar.

* * *

Masallı rayonunda 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə uşaqlar, yeniyetmələr və gənclər arasında rayon birinciliyi başa çatıb. Turnir Masallı Rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilib.

Qaliblərin mükafatlandırılması mərasimində çıxış edən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev və rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Şaban Əliyev 1990-cı ilin 20 Yanvar hadisələrindən danışaraq, Vətənin azadlığı uğrunda şəhid olanların xatirəsinin heç vaxt unudulmayacağını bildiriblər.

İki gün davam edən yarışda 100-ə yaxın idmançı 10 çəki dərəcəsində qalib adı uğrunda mübarizə aparıb.

Qaliblər diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

### Yubiley

## İdmanla döyünən ürək

***İnsan ömrü çox mürəkkəb və çətinliklərlə zəngin olur. Ancaq həmin çətinliklərin müqabilində ömrün yüksəliş nöqtəsinə qədəm qoyanda insan özünü bir qədər rahat hiss edir. Həmin zirvədən dönüb geri baxanda gözlərin önündə keçdiyin yolun daşlı-kəsəkli, enişli-yoxuşlu anları canlanır. Xüsusilə əməllərindən kimlərsə bəhrələnirsə, o zaman gördüyün işlərin dəyəri daha qiymətli olur. Bu bir həqiqətdir ki, idmanda asan yol yoxdur. Gərək onun acılı-şirinli anlarına, əziyyətlərinə qatlaşıb, məqsədinə doğru gedəsən. Amma, istəklər, arzular tükənməz olur. Kimisi müəyyən zirvəyə çatanda onunla kifayətlənir, bəziləri isə fəaliyyətini davam etdirir və yeni zirvələr fəth etməyə çalışır.***



Haqqında söhbət açmaq istədiyim qayğıkeş insan, 1948-ci ilin 29 yanvar tarixində Bakı şəhərində anadan olan və ömrünün 60 ildən çoxunu idmana, 40 ilini isə həmin sahədə pedaqoji fəaliyyətə həsr edən Azərbaycan Respublikasının Əməkdar məşqçisi Ramiz Əbülfəz oğlu Əliyevdir.

Ramiz müəllimlə mənim şəxsi tanışlığım təxminən 35-40 il əvvələ təsadüf edir. Respublika radiosunda çalışdığım dövrdə Olimpiya idman növü olan otüstü hokkey Bakı və Sumqayıt şəhərlərində yenicə inkişaf yoluna qədəm qoyduğundan bu haqda tez-tez verilişlər hazırlayır, müsahibələr səsləndirirdik. Bax, Ramiz müəllimlə yaxından tanışlığımız da elə o zamandan başlanıb. Onun gördüyü işlərin əhəmiyyətini, faydasını hiss edəndən sonra bu şəxsin sadəliyinə, təvazökarlığına adam həsəd aparır. Axı sadəliyin özü də bir vergi, zinət və mənəvi sərvətdir.

Ramiz Əliyev Azərbaycan Neft və Kimya İnstitutunun "Kimya-texnologiya" fakültəsində təhsil alarkən Sumqayıt şəhərində mərhum İsa Qasımovun məşqçiliyi altında SSRİ çempionatının I dəstəsində mübarizə aparan "Polad" komandasının heyətində çıxış edib. Ali təhsil alandan sonra fəal idmandan ayrılıb və 1978-ci ildən Sumqayıt şəhərindəki 1 nömrəli UGİM-də otüstü hokkey bölməsində məşqçi-müəllim kimi fəaliyyətə başlayıb. 9 ildən sonra idman növlərinin inzibati dislokasiyası ilə əlaqədar həmin bölmə məşqçilərlə birgə Sumqayıtdakı 2 nömrəli UGİM-ə köçürülür. 1992-ci ildən isə Ramiz müəllim UGİM-də məşqçi işləməklə yanaşı, eyni zamanda Corat qəsəbəsindəki 7 nömrəli tam orta məktəbdə fiziki tərbiyə müəllimi kimi fəaliyyətə başlayıb. Coratda otüstü hokkeyin inkişafı üçün fəal işlər aparıb. Fəaliyyət göstərdiyi məktəbin ərazisində kiçik ölçülü süni örtüklü otüstü hokkey meydançası yaradaraq, qəsəbə uşaqlarını həmin bölmədə məşqələrə cəlb edə bilib. 1982-1990-cı illər ərzində Ramiz müəllim Sumqayıtın yeniyetmə, gənc və kişilərdən ibarət seçmə otüstü hokkey komandalarına məşqçi və baş məşqçi kimi rəhbərlik edib. Heç təsadüfi deyil ki, "Gənclik şəhəri"nin yeniyetmə və gənclərdən ibarət seçmə komandaları onun məşqçiliyi dövründə dəfələrlə SSRİ birinciliklərinin qalibi və mükafatçısı olublar. Sevindiricidir ki, Ramiz müəllimin rəhbərliyi altındakı yetirmələrin bəziləri SSRİ yığma komandalarının tərkibində də çıxış ediblər.

1986-cı ildə məşqçilik fəaliyyətindəki xidmətlərinə görə Ramiz Əliyev "Azərbaycanın Əməkdar Məşqçisi" fəxri adına layiq görülüb. 1998-2007-ci illərdə o, ölkəmizin kişi otüstü hokkeyçilərdən ibarət milli komandasının baş məşqçisi olmuşdur. Ramiz müəllim 2010-cu ildən bu günə kimi respublikamızın yeniyetmə oğlanlardan ibarət seçmə komandasına rəhbərlik edir.

Ramiz Əliyev məşqçilik fəaliyyəti ilə yanaşı, otüstü hokkeyin inkişafı ilə əlaqədar elmi axtarışları davam etdirir. "İdman məktəblərində otüstü hokkey üzrə təlim-məşq prosesinin təşkili və keçirilməsi üçün tədris proqramı"nın (2010) və "Otüstü hokkeyçilərin hazırlanmasının nəzəri əsasları" (2012) adlı dərs vəsaitinin müəllifidir.

2013-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən Azərbaycan Respublikasının "Fəxri Bədən Tərbiyəsi və İdman işçisi" adına layiq görülüb.

Ömrünün 70-ci qışını başa vurmaqda olan Ramiz Əbülfəz oğlu Əliyev bugünlərdə həmin tarixi günü qeyd edir. Yetirmələri, şagirdləri və dostları yubilyarı təbrik edir, ona cansağlığı və Azərbaycan idmanının inkişafı naminə yeni-yeni uğurlar arzulayırlar.

*Yaqub Nuriyev,*
*Azərbaycan Respublikasının*
*Əməkdar jurnalisti*

### Karate



## Xorvatiya Qran-prisindəki uğurlu çıxış yüksək qiymətləndirilib

***Azərbaycan Milli Karate Federasiyasının (AMKF) rəhbərliyi Xorvatiya Qran-prisində iştirak edən yeniyetmə və gənclərdən ibarət yığma komandalarımızın üzvləri ilə görüşüb.***

Federasiyanın prezidenti Yaşar Bəşirov nüfuzlu turnirdə 2 qızıl, 2 gümüş və 4 bürünc medal qazanan idmançılarımızın qənaətbəxş nəticə göstərdiyini deyib. O, bu uğurların dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi dəstək sayəsində əldə olunduğunu diqqətə çatdırıb. Yeniyetmə və gənc karateçiləri təbrik edən federasiya prezidenti nəticələrin daim artacağına ümid etdiyini söyləyib.

Baş katib Mirhəsən Seyidov idman ölkəsi olan Azərbaycanın bu imicini daim yüksək tutmağın vacibliyini qeyd edib. Bundan sonra da idmançıların problemlərinin həllinə çalışacaqları söyləyən baş katib gənc karateçilər üçün maarifləndirici seminarlar təşkil olunacağını bildirib.

Yeniyetmə və gənclərdən ibarət komandaların məşqçiləri Anar Allahverdiyev və Şahin Xudaverdiyev Avropa çempionatı ərəfəsi milli komandaların beynəlxalq turnirdə iştirakına şərait yaratdığına görə federasiya rəhbərliyinə minnətdarlığını ifadə edib. Məşqçilər fevralın əvvəlində Soçidə qitə çempionatında seçmə komandanın hər bir üzvünün medal qazanacağına inandığını deyib.

Görüşdə, həmçinin idmançıların turnirdəki çıxışları fərdi olaraq müzakirə edilib. Hakimlər Komitəsinin sədri Cahangir Babayevə yeniyetmə və gənclərdən ibarət komandanın həyatını yarış qaydalarında yeniliklərlə tanış etmək, federasiyanın həkimi Pərvin Əkbərova zədəli idmançıların yarışa iştirak edə bilmək ehtimalını yoxlamaq tapşırılıb. Milli komandanın lideri Rafael Ağayevə isə Avropa çempionatından əvvəl aşağı yaşlı idmançılarla birgə məşqlərdə təcrübəsini bölüşmək barədə tapşırıqlar verilib.






## Anar Bağırov:
# “Olimpiya Oyunları sülhə, hümanizmə xidmət edir”

Pxençxan-2018 Qış Olimpiya Oyunlarına sayılı günlər qalır. Fevralın 9-dan 25-dək dünyanın 2500 atleti XXIII Qış Olimpiadasında iştirak etmək üçün Cənubi Koreyanın Pxençxan şəhərinə toplaşacaq.

Azərbaycan Olimpiya yığması qış olimpiadalarında 1998-ci ildən iştirak edir. Ölkəmiz bu qış olimpiadasında 12 nəfərdən ibarət nümayəndə heyəti ilə təmsil olunacaq. “Olimpiya dünyası” qəzeti olaraq səfərdən əvvəl Pxençxan-2018 Olimpiadasında Azərbaycan nümayəndə heyətinin şef-de-misyonu, Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Anar Bağırovla görüşüb, onun fikirlərini öyrəndik.



***- Anar müəllim, Azərbaycan qış olimpiadasında 1998-ci ildən iştirak edir. O vaxtdan indiyə kimi hansı irəliləyişlər əldə olunub?***

- Azərbaycanda hələ sovet dövründə qış idman növlərinin inkişafı üçün baza yaradılması istiqamətində müəyyən işlər görülüb, müəyyən addımlar atılıb. Hətta Bakıda idman saraylarında fiqurlu konkisürmə üzrə yarışlar belə keçirilib. Lakin Azərbaycanın cənub ölkəsi olması qış idman növlərinin kifayət gədər inkişafına imkan vermir. Hazırda qış idman növlərinin ölkəmizdə inkişafı istiqamətində müəyyən işlər görülür. Şahdağ Olimpiya Kompleksi müasir standartlara cavab verən idman qurğusudur. Burada qış idmanı ilə məşğul olan uşaq və yeniyetmələrin sayı kifayət qədərdir. Biz yeniyetmə idmançılara böyük ümid bəsləyirik. Yeniyetmələrin Qış Olimpiya Oyunlarında iştirak etməsi və nəticə göstərən idmançıların komandaya cəlb edilməsi istiqamətində işlər aparılır. Düşünürəm ki, 2-3 ildən sonra qış olimpiadasında ölkəmizi legioner idmançı deyil, azərbaycanlı atlet təmsil edəcək. Azərbaycan Yay Olimpiya Oyunlarında boks, güləş, cüdo kimi ənənəvi idman növlərində yüksək nəticələr əldə edir, amma qış idman növlərində bunu demək hələlik mümkün deyil. Bu sahədə uğur əldə etmək üçün zamana ehtiyac vardır. Burada ənənəvilik və texniki amil çox mühümdür. Qış idmanı texniki növlərdən ibarət olduğuna görə məsələ bir qədər çətindir. Yaxşı idmançının yetişməsi üçün hardasa 8-10 il vaxt tələb olunur.

Ölkəmiz 1998-ci ildə Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında 4 idmançı ilə təmsil olunub. 2002-ci ildə Solt Leyk Sitidə yenə də 4 idmançı ilə, amma iki idman növündə iştirak etmişik. Turin-2006-da 2 idmançımız yalnız bir idman növündə qüvvəsini sınyıb. Bu, 2010-cu ildə Kanadanın Vankuver şəhərində keçirilən Qış Olimpiya Oyunlarında təkrar olunub. Olimpiya komandamız Soçi-2014 Qış Olimpiya Oyunlarında 4 idmançımız 2 idman növündə qüvvəsini sınayıb. Pxençxan-2018 isə komandamızın qış olimpiadasında 6-cı dəfə iştirak etdiyi idman tədbiri olacaq.

***- Bu il ölkəmiz Cənubi Koreyada neçə idmançı ilə təmsil olunacaq?***

- Bu il ölkəmizi Qış Olimpiya Oyunlarında bir idmançı - Patrik Braxner təmsil edəcək. 25 yaşlı avstriyalı legioner kişilər arasında slalom və böyük slalom yarışlarında çıxış edəcək. O, 2014-cü il Soçi Qış Olimpiya Oyunlarında da ölkəmizi təmsil edib. O, Soçidə böyük slalom növündə 53-cü yeri tutub.

İdmançımız Pxençxan-2018 Olimpiadasına lisenziyanı müxtəlif yarışlarda topladığı xallar sayəsində qazanıb.

***- Qış idman növləri üzrə başqa legionerlərin cəlb edilməsi nəzərdə tutulurmu?***

- Qış idman növləri ənənəvi olaraq Skandinaviya ölkələrində daha yaxşı inkişaf edib. Necə ki, stolüstü tennis Çində inkişaf etdiyi kimi. Müəyyən sərhədlər və qadağalar qoyulmasa, yəqin ki, bütün dünyada qış idman növlərində skandinaviya idmançıları hegemonluq edərlər. Bu da yerli idmançıların yetişdirilməsinin qarşısını ala bilər. Beynəlxalq qaydalara görə, başqa ölkədən gələn idmançı burada azı 4 il yaşamalıdır.

***- Nümayəndə heyəti barədə nə deyə bilərsiniz?***

- Azərbaycan Pxençxanda 12 nəfərdən ibarət nümayəndə heyəti ilə təmsil olunacaq. Bayrağımızı Patrik Braxner aparacaq. Üst idman geyimlərinin hazırlanmasında mavi rəngin açıq və tünd çalarlarından istifadə olunub. Şalvar isə qəhvəyi rəngdədir.

Rəsmi nümayəndə heyətində Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, nazirliyin idman şöbəsinin müdiri Fərid Mansurov da yer alıb.

***- Pxençxan-2018 Olimpiadasında Şimali Koreya idmançılarının çıxış etməsi barədə nə deyə bilərsiniz?***

- Antik Olimpiya Oyunlarında yarışlar vaxtı müharibələrə son quyulur, müvəqqəti də olsa, barışıq elan olunurdu. Olimpiya Oyunları sülhə, dostluğa, hümanizmə xidmət edir. Dünyanın hər yerindən idmançılar irqindən, dinindən asılı olmayaraq 4 ildən bir olimpiadalarda iştirak edir, ünsiyyət qurur, dostlaşırlar. XXIII Qış Olimpiya Oyunlarında Şimali Koreya idmançılarının iştirak etməsi çox müsbət haldır və alqışlanmalıdır.

***- Atanız Natiq Bağırov tanınmış idmançılardandır. İdman sahəsinə Sizi yönəldən atanız oldumu?***

- Atam sambo və cüdo üzrə 4 qat dünya, 5 qat Avropa çempionudur. Hazırda Azərbaycan Cüdo Federasiyasında qadınlardan ibarət yığmanın baş məşqçisidir. Özüm də xeyli müddət idmanla məşğul olmuşam. Yerli səviyyəli turnir və yarışlarda iştirak etmişəm. Ölkəmizi Rio-2016 Olimpiadasında şef-de-misyonun köməkçisi, IV İslam Həmrəyliyi Oyunlarında isə şef-de-misyon kimi təmsil etmişəm.

# XXIII Qış Olimpiya Oyunları - Pxençxan-2018

## Tarixə nəzər

Milyonların sevə-sevə izlədiyi yay və qış Olimpiya Oyunlarının saysız-hesabsız azarkeşləri və pərəstişkarları vardır. Maraq dairəsi müxtəlif olan insanların bəzisi yay, bəzisi isə qış Olimpiya Oyunlarına (“Ağ olimpiada”) üstünlük verirlər.

“Ağ olimpiada” (1924), yaranma tarixinə görə yay Olimpiya Oyunlarından (1896) daha gəncdir. Qış idman növü olan fiqurlu konkisürmə yarışları ilk dəfə 1908-ci ildə Londonda keçirilən IV Yay Olimpiya Oyunlarının proqramında nümayiş etdirilib. İştirakçıların sayı az olduğundan, bu növ üzrə yarışlarda rəqabət zəif olub. İkinci dəfə qış idman növləri 1920-ci ildə Antverpen yay Olimpiya Oyunlarının proqramına daxil edilib.

Müasir Olimpiya Hərəkatının banisi Pyer de Kuberten hələ XX əsrin əvvəllərində qış idman növləri üzrə ayrıca Olimpiya Oyunlarının keçirilməsi barədə təklif vermişdi. Beynəlxalq Olimpiya Komitəsi (BOK) Kubertenin bu təklifini dəfələrlə müzakirə etsə də, müsbət nəticəyə gələ bilməmişdi. Çünki Skandinaviya ölkələri bununla razılaşmaq istəmir, İsveç və Norveçin idman nümayəndələri isə bu təklifin lüzumsuz olduğunu hesab edirdilər. Onlar iddia edirdilər ki, qış idman növləri üzrə məşhur idmançılar onsuz da, 1901-ci ildən ənənvi keçirilən Şimal Oyunlarında iştirak edirlər və bu oyunlarla yanaşı ayrıca Qış Olimpiya Oyunlarının keçirilməsinə ehtiyac yoxdur.

Lakin Olimpiya ideyalarının və prinsiplərinin təbliğində əvəzsiz xidmətləri olan mübariz insan Pyer de Kuberten bu əhəmiyyətli məsələdə yüksək əzmkarlıq və qətiyyət nümayiş etdirdi. Onun təklifi ilə BOK-un 1922-ci ildə keçirilən Paris sesiyasında əsas müzakirə mövzusu qış idman növləri üzrə Olimpiya Oyunlarının keçirilməsi oldu. Nəhayət, uzun sürən diplomatik danışıqlardan sonra baron narazı ölkələrlə razılıq əldə edə bildi. Paris sessiyaının qərarına görə, I Qış Olimpiya Oyunlarını 1924-cü ildə keçirilməsi planlaşdırıldı. 1991-ci ildə Beynəlxalq Olimpiya Komitəsinin sessiyasında, 1994-cü ildən başlayaraq, yay Olimpiya Oyunlarının qış Olimpiya Oyunları ilə növbəli keçirilməsi və oyunlar arasında 2 illik fasilənin təmin edilməsi haqqında qərar qəbul edildi: XVII Qış Olimpiya Oyunlarının 1994-cü ildə, XXVI Yay Olimpiya Oyunlarının isə 1996-cı ildə keçirilməsi planlaşdırıldı. O vaxtdan etibarən yay və Qış Olimpiya Oyunları ikiillik fasilə ilə növbəli keçirilir.

Qeyd edək ki, indiyədək cəmi 22 Qış Olimpiya Oyunları keçirilib. İkinci Dünya müharibəsi ilə əlaqədar olaraq, 1940-1944-cü illərdə nəzərdə tutulan qış olimpiadaları baş tutmayıb.

### Dosye



**Adı:** Patrik
**Soyadı:** Braxner
**Doğulduğu yer:** Avstriya
**Təvəllüdü:** 07.01.1992
**Boyu:** 184 sm
**Uğurları:** Soçi-2014 Olimpiadası və dünya çempionatının iştirakçısı (2011), müxtəlif beynəlxalq turnirlərin mükafatçısı

## İdman insanları birləşdirir

Sayca XXIII Qış Olimpiya Oyunları bu il fevralın 9-dan 25-dək Cənubi Koreyanın Pxençxan şəhərində keçiriləcək. Pxençxan ev sahibliyi hüququnu BOK-un 2011-ci ildə Durbanda (CAR) keçirilən 123-cü sessiyasında qazanıb. Cənubi Koreyanın bu şəhəri 63 səslə rəqibləri Münhen (Almaniya) və Ansini (Fransa) geridə qoyub.

XXIII Qış Olimpiya Oyunlarında dünyanın 90 ölkəsindən 2500-dən artıq idmançı iştirak edəcək. İdmançılar 7 idman növündə 98 dəst medal uğrunda mübarizə aparacaqlar. Olimpiadanın talismanları pələng Suxoron və ayı Pandabidir. Məşəl estafetinə ötən ilin oktyabr ayının 24-də start verilib. Estafet yarışların açılışı günü, yəni fevralın 9-da Olimpiya stadionunda başa çatacaq.

Pxençxan-2018 Qış Olimpiadası hələ başlamamışdan əvvəl müəyyən hadisələrlə tarixə düşməyə müvəffəq olub. Belə ki, qış olimpiadası tarixində ilk dəfə Rusiya Olimpiya yığması yarışlardan kənarda qalıb. Buna səbəb qonşu ölkənin dopinqə “ilişməsi” olub. Milli Antidopinq Təşkilatları Assosiasiyası (NADO) 2017-ci il sentyabrın 13-də Rusiyanın olimpiadadan uzaqlaşdırılması ilə bağlı BOK-a müraciət edib. Həmin ilin dekabrın 2-də Samuel Şmidin rəhbərliyi altında komissiya Rusiyada dopinqdən istifadə ilə bağlı məruzəni ali quruma təqdim edib. Beləliklə, BOK dekabrın 5-də Rusiyanın Pxençxan-2018 Olimpiadasından kənarlaşdırılması barədə qərar qəbul edib. Beynəlxalq qurum rusiyalı idmançıların neytral - Olimpiya bayrağı altında iştirakına icazə verib.




Olimpiada ilə bağlı digər önəmli hadisə isə Şimali Koreyanın Pxençxan-2018 Qış Olimpiya Oyunlarında iştirakı ilə bağlıdır. Seul və Pxenyan arasında danışıqların gedişində olimpiadada hətta qadınların vahid hokkey komandasında çıxış etməsi barədə razılıq əldə olunub. Danışıqlar zamanı, həmçinin Oyunların açılış mərasimində Cənubi Koreya və KXDR komandalarının stadiondan bir bayraq altında keçməsi də müzakirə olunub. BOK-un Xartiyasında da yazıldığı kimi Olimpiya Oyunları sülhə, dostluğa xidmət edir və dinindən, irqindən, cinsindən asılı olmayaraq bütün insanları birləşdirir.

## Azərbaycan qış Olimpiya Oyunlarında

Azərbaycan idmançılarının Olimpiya Oyunlarında iştirakını təmin etmək Milli Olimpiya Komitəsinin başlıca vəzifələrindəndir. Olimpiya Hərəkatının genişləndirilməsi, idmanın kütləviliyi, maddi-texniki bazanın möhkəmləndirilməsi ölkədə idmanın kompleks inkişafını şərtləndirən amillər olduğundan bu sahəyə dövlət səviyyəsində diqqət və qayğı göstərilir. Artıq ölkəmizdə yay idman növləri ilə bərabər, qış idman növlərinə də şərait yaradılıb. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev 2006-ci il iyul ayının 28-də Qusar rayonunda Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimində Şahdağın ətəyinin qış idman növlərindən dağ xizəkçiliyi üçün çox əlverişli olduğunu bildirmiş və bu sahənin inkişfafının vacibliyini vurğulamışdı. Hazırda Şahdağ qış və yay turizm kompleksi qış idman növlərinin təbliği və inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən baza rolunu oynayır.

Müstəqil Azərbaycanın Qış Olimpiya Oyunlarında iştirakı 1998-ci ildən başlayır. İdmançılarımız 1998-ci ildə Yaponiyanın Naqano, 2002-ci ildə ABŞ-ın Solt-Leyk-Siti, 2006-cı ildə İtaliyanın Turin, 2010-cu ildə Kanadanın Vankuver, 2014-cü ildə Rusiyanın Soçi şəhərində mübarizə aparıblar. 1998-ci il fevralın 1-də Naqanodakı (Yaponiya) Olimpiya kəndində Azərbaycanın dövlət bayrağı qaldırılması ölkənin idman həyatı üçün əlamətdar hadisə kimi yadda qalıb. Bu hadisə Azərbaycanın adını ilk dəfə Qış Olimpiya Oyunlarının səlnaməsinə həkk edib. İndiyə qədər qış Olimpiya idman növlərində Azərbaycanı Y.Vorobyeva, İ.Paşkeviç, S.Rılov, Kristina Freyzer, İqor Lukanin, Elbrus İsakov, Patrik Braxner kimi idmançılar təmsil ediblər.

## Azərbaycan idmançılarının iştirak etdiyi Qış Olimpiya Oyunları

### Naqano-1998

Azərbaycan Naqano-1998 Olimpiadasında 5 idmançı ilə təmsil olunurdu. Ölkəmizi fiqurlu konkisürmə idmanı üzrə fərdi yarışlarda Yuliya Vorobyova (qadınlar), İqor Paşkeviç (kişilər), cütlüklərin yarışında İnqa Rodionova və Aleksandr Anişşenko təmsil edirdilər. Y.Vorobyova 16-cı, İqor Paşkeviç 16-cı və İ.Rodionova-A.Onişşenko cütlüyü yarışları 18-ci yerdə başa vurdular. Ölkəmizi dağ xizəyi idman növü üzrə təmsilçisi Elbrus İsakov xəstələndiyinə görə yarışlarda iştirak edə bilmədi.

### Solt-Leyk-Siti-2002

2002-ci ildə ABŞ-ın Solt-Leyk-Siti şəhərində keçirilən XIX Qış Olimpiya Oyunlarında Azərbaycan Olimpiya yığması ikinci dəfə iştirak edirdi. Ölkəmiz bu yarışlarda iki idman növü - fiqurlu konkisürmə və dağ xizəyi üzrə 4 idmançı ilə təmsil olunurdu.

Cütlüklərin fiqurlu konkisürmə yarışlarında ölkəmizi təmsil edən Kristina Frezer və İqor Lukanin qısa, məcburi və sərbəst çıxışlardan sonra 32 ölkənin nümayəndələri arasında 17-ci yeri tutdular.

Fiqurlu konkisürmə üzrə kişilərin fərdi yarışlarında Azərbaycanı təmsil edən Sergey Rılov yarışlara həmvətənlərindən tez qatılsa da, imkanlarından aşağı səviyyədə çıxış etdi. Dağ xizəkçisi Elbrus İsakov slalom yarışında birinci cəhddə məsafənin yarısını keçə bildi və mübarizəni dayandırmalı oldu.

### Turin-2006

Azərbaycan idmançıları Turin-2006 Qış Olimpiya Oyunlarında iştirak etməklə üçüncü dəfə idi ki, bu oyunlara qatılırdılar. Bu yarışlarda ölkəmizi 4 idmançı - dağ xizəkçisi Elbrus İsakov, fiqurlu konkisürmə cütlüyündə Kristina Freyzer və İqor Lukanin, fərdi konkisürmədə Sergey Rılov təmsil edirdilər. Bundan başqa, Beynəlxalq Konkisürmə Federasiyasının üzvü olan hakimlərimiz Yevgeniya Boqdanova və İrina Yeçkina bu oyunlarda ədaləti qoruyublar.

Fiqurlu konkisürmə növündə Azərbaycan cütlüyü 23 ölkə idmançısının iştirak etdiyi yarışda Ermənistan, Polşa, İsrail, Ukrayna idmançılarını geridə qoyaraq 19-cu pillədə yer alıb.

### Vankuver-2010

2010-cu ildə Kanadanın Vankuver şəhərində keçirilən XXI Qış Olimpiya Oyunlarında ölkəmiz dağ xizəyi idmanının slalom və nəhəng slalom yarışlarında 1 kişi və 1 qadın atletlə təmsil olunub. Nəhəng slalom yarışlarında Azərbaycanı Sedrik Noçs təmil edib. Qadınların nəhəng slalom yarışlarında isə Qaya Antivari Basani mübarizə aparıb.

### Soçi-2014

Rusiyanın Soçi şəhərində keçirilən XXII Qış Olimpiya Oyunlarında ölkəmizi dağ xizəyi üzrə Patrik Braxner (kişilər), Gaia Bassani Antivari (qadınlar) və fiqurlu konkisürmə cütlüyü Alexei Sitnikov və Yuliya Zlobina təmsil ediblər.

***Səhifəni hazırladı: Səadət Hakıyeva***

## Müsahibə

# “İnanırıq ki, ölkəmiz dünya çempionatına uğurla ev sahibliyi edəcək”

*2017-ci il Azərbaycan idmanı üçün uğurlu nəticələrlə yadda qaldı. Ölkəmiz ötən il bir sıra mötəbər yarışlara uğurla ev sahibliyi etdi. Əldə olunan uğurların qazanılmasında isə Azərbaycan Cüdo Federasiyasının da müstəsna rolu oldu. Qurum tərəfindən idmançılara göstərilən qayğı öz bəhrəsini verdi. İdmançılarımız bir sıra yaddaqalan nəticələrlə diqqət mərkəzinə düşdülər. Bütün bu uğurlar, yola saldığımız ildə görülən işlər, gələcək planlar barəsində ətraflı məlumat almaq üçün Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı ilə görüşdük. Müsahibimiz öz növbəsində bizi maraqlandıran sualları ətraflı cavablandırdı.*



***- Elmar müəllim, geridə qoyduğumuz 2017-ci il Azərbaycan cüdosu üçün hansı hadisələrlə yadda qaldı?***

- Cüdo idman növünün ötən iki il ərzində Azərbaycanda inkişafı göz önündədir. 2015-ci ildə Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayevin sədrliyi ilə keçirilmiş konfransdan sonra Rio-2016 Yay Olimpiya Oyunları öncəsi gücləndirilmiş xüsusi fəaliyyət proqramının tədbiqi sayəsində böyük tarixi uğurlarımızın təməli qoyuldu. Rio Olimpiya Oyunlarında cüdoçularımızın iki gümüş medal qazanması böyüməkdə olan yeniyetmə və gənc nəsil cüdoçularımız üçün əsl stimul oldu. 2017-ci ilin nəticələrini təhlil etdikdə, beynəlxalq yarışlarda rekord sayda medalların və tarixi nailiyyətlərin qazanıldığını görürük. Belə ki, bu müddət ərzində böyüklər, gənclər, yeniyetmələr, paralimpiyaçılar və veteranlardan ibarət milli yığma komandalarımızın üzvləri iştirak etdikləri 39 beynəlxalq səviyyəli yarışda 193 medal qazanıblar. Bunlardan 68-i qızıl, 57-si gümüş və 68-i bürünc medaldır.

***- Hər bir yarış yeni uğur, yeni sınaqdır. Uğura gedən yol çətin sınaqdan keçir. Bu fikirlə razılaşırsınızmı?***

- Bəli. Uğura gedən yol sınaqsız olmur. Azərbaycan Cüdo Federasiyası mütəmadi olaraq cüdo üzrə bütün milli komandalarımızın yerli və beynəlxalq təlim-məşq toplanışlarını yüksək səviyyədə təşkil edir. Biz idmançılarımızın nəyə qadir olduğunu hər dəfə sınaqdan keçiririk. Cüdoçularımızın hazırlıq planı üzrə nəzərdə tutulan bütün beynəlxalq yarışlarda iştirakı təmin olunur.

***- İdmançılarımızın Budapeşt və Varşava sınağı da kifayət qədər uğurlu oldu.***

- Əlbəttə, bu yarışlardan ən çətini Macarıstanın paytaxtı Budapeştdə keçirilmiş dünya çempionatıdır. Cüdoçularımızdan Orxan Səfərov və Rüstəm Orucov dünya çempionatının gümüş medallarına sahib oldular. Ağır çəkili idmançılarımız Elmar Qasımov və İrina Kindzerska isə çempionatın bürünc medalını qazandılar. Dünya çempionatının Azərbaycan cüdosu üçün ən əlamətdar hadisəsi isə Beynəlxalq Cüdo Federasiyasının Budapeştdə keçirilmiş növbəti hesabat-seçki konqresində Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayevin bu qurumun İcraiyə Komitəsinə üzv seçilməsi idi. Bu tarixi hadisənin səbəbi Azərbaycanda uğurla həyata keçirilən inkişaf strategiyasının Beynəlxalq Cüdo Federasiyası tərəfindən bir model kimi tanınması və bir çox ölkələrə nümunə göstərilməsi kimi başa düşülür.

Polşanın Varşava şəhərində keçirilmiş Avropa çempionatında da Milli komandamız böyük tarixi nailiyyətə imza atıb. Yığmanın ən gənc üzvü Hidayət Heydərov və komandanın kapitanı Elxan Məmmədov bütün rəqibləri üzərində parlaq qələbələr qazanaraq Avropa çempionu tituluna yiyələniblər. Daha üç cüdoçumuz Orxan Səfərov, Nicat Şıxəlizadə və Rüstəm Orucov isə çempionatın bürünc medalını qazanıblar.

***- Nailiyyətlərdən danışırıqsa, IV İslam Həmrəyliyi Oyunlarındakı nəticələri də xüsusi qeyd etməliyik.***

- Paytaxtımızda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında cüdoçularımız çox gözəl nəticələr əldə etdilər. Tam heyətlə iştirak etmiş kişilərdən ibarət milli komandamız fərdi yarışda 5 qızıl 2 gümüş medal qazandılar. Kişilərdən ibarət millimiz komanda yarışında da qızıl medal qazanaraq 100 faizlik nəticə göstərdi. Qadın millimizin üzvləri isə komanda yarışının gümüş medalını, fərdi proqramda isə 1 qızıl və 5 gümüş medal qazandılar. Oyunların paralimpiya proqramında da tam heyətlə çıxış etmiş cüdoçularımız 4 qızıl, 4 gümüş və 3 bürünc medal qazanmağa müvəffəq oldular.

***- Yeniyetmə və gənc cüdoçularımızın ötənilki çıxışları sizi razı saldımı?***



- Azərbaycan Cüdo Federasiyasının rəhbərliyi əsas milli komandamızla yanaşı, gənc və yeniyetmə cüdoçularımızın da inkişafına böyük əhəmiyyət verir. Onlar üçün yaradılan şəraitdən maksimum bəhrələnən gənclərimiz ötən il keçirilmiş Avropa və dünya çempionatı kimi mötəbər yarışlarda uğurlu nəticələr qazanıblar. Sloveniyanın Maribor şəhərində keçirilmiş Avropa çempionatının fərdi proqramında 3 qızıl, 2 gümüş və 2 bürünc medal qazanmaqla yanaşı, Azərbaycan cüdosu tarixində ilk dəfə olaraq komanda yarışının qalibi olub. 1 ay sonra Xorvatiyanın Zaqreb şəhərində keçirilən dünya çempionatında gənclərimiz 2 qızıl, 2 gümüş, 1 bürünc medal qazanaraq medal əyarına görə ümumkomanda cədvəlində 2-ci, oğlanların fərdi hesabında isə cüdonun yaradıcıları olan Yaponiya komandasını üstələyərək, birinci yeri tutdular. Yeniyetmə cüdoçularımız isə Litvanın Kaunas şəhərində təşkil olunan Avropa birinciliyini 1 qızıl, 3 gümüş və 1 bürünc medalla başa vurublar. Macarıstanın Qyor şəhərində keçirilmiş Avropa Yeniyetmələrinin Olimpiya Festivalında cüdoçularımızın qazancı 1 gümüş və 1 bürünc medal oldu. Onu da qeyd edim ki, növbəti Festival 2019-cu ildə ildə paytaxtımızda təşkil olunacaq və cüdoçularımızın doğma azarkeşlər önündə daha yüksək nailiyyətlər qazanacağına inanırıq.

***- Elmar müəllim, bölgələrdə cüdonun inkişafı istiqamətində hansı işlər görülür?***

- Federasiya fəaliyyətinin prioritet istiqamətlərindən biri də bölgələrdə cüdonun inkişaf etdirilməsidir. Bu sahədə artıq bir neçə regional cüdo mərkəzlərinin açılışı olub. Federasiya tərəfindən cüdo tatamiləri və kimano geyim dəstləri təmənnasız məşq etmək həvəsi olan yüzlərlə yeniyetmələrin istifadəsinə verilib. Bu iş qarşıdan gələn illərdə də tərəfimizdən müntəzəm olaraq davam etdiriləcək. Həmçinin, ötən il ərzində Naxçıvan Muxtar Respublikası da daxil olmaqla Respublikamızın 7 bölgəsində 2 yaş qrupunda yeniyetmələr arasında regional birinciliklər, o cümlədən Sumqayıt və Bakı şəhərlərinin birincilikləri keçirilib. Belə ki, müxtəlif bölgələrin Olimpiya komplekslərində təşkil olunmuş bu yarışlarda respublikamızın 47 şəhər və rayonundan 2000-dən artıq yeniyetmə idmançı iştirak edib. Son dövrlərdə Şəkidə, Qaxda, Sabirabadda, Qazaxda və s. yerlərdə yeni cüdo bölmələri açılıb.

***- Paytaxtımız bu ilin sentyabr ayında cüdo üzrə dünya çempionatına ev sahibliyi edəcək. Yarışa hazırlıq işləri necə gedir?***

- 2018-ci il Azərbaycan Cüdo Federasiyası üçün daha məsuliyyətli olacaq. Beynəlxalq Cüdo Federasiyası 2018-ci ildə kişilər və qadınlar arasında dünya çempionatının Bakıda keçirilməsini ölkəmizə həvalə edib. Bu bir daha onu göstərir ki, ölkə prezidenti İlham Əliyevin idman sahəsində yürütdüyü uğurlu siyasət sayəsində Azərbaycan nüfuzlu beynəlxalq idman təşkilatları tərəfindən idman ölkəsi kimi tanınır, mötəbər yarışlara ev sahibliyi etimadını qazanır. Komandamız bu çempionata yüksək səviyyədə hazırlaşır. İnanırıq ki, ölkəmiz dünya çempionatına uğurla ev sahibliyi edəcək.

***- Yığma komandalarımıza yeni baş məşqçilər təyin olundu. İstərdik bu təyinatlarla bağlı fikirlərinizi bildirəsiniz.***

- Rio Olimpiadasından sonra müəyyən səbəblərə görə kişilərdən ibarət komandanın baş məşqçisi Peter Zeyzenbaher bu vəzifədə öz işini davam etdirə bilmədi. Bundan sonra Azərbaycan Cüdo Federasiyası yeni baş məşqçi axtarışına çıxdı. Sözsüz ki, bu təyinat dərhal ola bilməzdi. Bir neçə mütəxəssis arasından Ruslan Maşurenkonun təklifi üzərində dayandıq. Beləliklə, kişilərdən ibarət əsas milli komandaya Olimpiya Oyunlarının mükafatçısı, əməkdar idman xadimi ukraynalı mütəxəssis Ruslan Maşurenko təyin olundu. Ukraynalı məşqçi ilə 2020-ci ilə qədər müqavilə imzalanıb. Qadınlardan ibarət milli komandaya isə dünya və Avropa çempionu, Belarusun əməkdar idman ustası adına layiq görülmüş “Şöhrət” ordenli Natiq Bağırov başçılıq edəcək. Hər iki mütəxəssisə inamımız böyükdür. Onu da qeyd edib ki, noyabr ayında Bakı Olimpiya Stadionunda Azərbaycan Cüdo Federasiyasının təlim-məşq zalının açılış mərasimi oldu. Müasir standartlara cavab verən idman qurğuları ilə təmin olunmuş zalda tibb məntəqəsi, soyunub-geyinmə otaqları və duş kabinləri də yaradılıb. Cüdo zalında əsas milli komandamızla yanaşı, gənclər və qadınlardan ibarət yığmaların üzvləri də məşq edirlər. Sözsüz ki, bütün bunlar yeni nailiyyətlərin təməli üçün bir vasitə olacaq.

***Azər Əlizadə***

## Kikboksinq

# Tanınmış idmançı “YARAT” Müasir İncəsənət Mərkəzinin qonağı olub

“YARAT” Müasir İncəsənət Mərkəzində tanınmış idmançı, kikboksçu Zabit Səmədov ilə görüş keçirilib.

Görüşdə Zabit Səmədov karyerası, keçirdiyi qarşılaşmalar, qazandığı nailiyyətlər barədə iştirakçılara məlumat verib.



Azərbaycanda yaxın vaxtlarda yeni kikboksinq məktəbinin açılacağını qeyd edən Z.Səmədov ölkəmizdə idmanın inkişafına göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Tanınmış idmançı “YARAT” Müasir İncəsənət Mərkəzində açılan “Dağılaraq zirvələrə doğru qalxırıq” adlı sərgi ilə də tanış olub.

Zabit Səmədov 1984-cü ildə Gürcüstanda dünyaya göz açıb. Doqquz yaşından idmana maraq göstərməyə başlayan Zabit əvvəllər məşqçi Əziz Dursunovun rəhbərliyi ilə altı ay karate ilə məşğul olub. Sonra muay-tay idman növünə üz tutub. O, 1998-ci ildən Minskdə məşhur “Chinuk GYM” klubunda fəaliyyətini davam etdirir. İdmançımız bu klubda dünya çempionu Dmitri Pyaçeski ilə məşq edir.

Tanınmış idmançı karyerasında peşəkar kikboksinq üzrə bir neçə dəfə dünya və Avropa çempionu, Qran-Pri mükafatının sahibi olub.

## Karate

# Federasiyaya yeni baş katib təyin olunub

Azərbaycan Milli Karate Federasiyasının (AMKF) baş katibi vəzifəsinə yeni təyinat olub. AMKF-in idarə heyətinin qərarı ilə bu vəzifəyə “İrəli” İctimai Birliyinin (İB) sədri Mirhəsən Seyidov təyin edilib. Yeni formalaşmış katiblik ümumi formada federasiyanın fəaliyyətinin daha da sürətləndirilməsinə və yeni nəticələrin əldə olunmasında yaxından iştirakına çalışacaq. Ümumilikdə federasiyanın, katibliyin işlərinə rəhbərliyi Mirhəsən Seyidov edəcək.

M.Seyidov 2014-cü ildən “İrəli” İctimai Birliyinin sədri, 2015-ci ilin mayından isə İctimai Televiziya və Radio Yayımları Şir-




kətinin altı il müddətinə Yayım Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun Müşahidə Şurasının üzvüdür. O, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsis olunan Gənclər üçün Prezident mükafatının laureatıdır.

# Formula-1

## Azərbaycan Qran-prisi beynəlxalq avtoidman sərgisində təmsil olunub

Formula-1 yarışının Azərbaycandakı təşkilatçısı “Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti (BŞH) İngiltərənin Birmingem şəhərində yerləşən “NEC Arena”da keçirilən 28-ci beynəlxalq avtoidman sərgisində növbəti dəfə təmsil olunub. Stenddə sərgi ziyarətçilərinə çəkilişdə iştirak edərək Azərbaycana ikinəfərlik səyahət paketi, Qran-priyə bilet qazanmaq və simulyatorlarda Bakı şəhər halqasında yarışmaq imkanı təqdim olunub. Həmçinin ziyarətçilərə Formula-1-in ən yeni şəhər treki olan Bakı şəhər halqası və satışda olan müxtəlif bilet seçimləri haqqında ətraflı məlumat verilib. Sərgidə Azərbaycan Qran-prisini təmsil edən BŞH-in marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai ölkəmizdə keçiriləcək Formula-1 yarışına beynəlxalq ictimaiyyətin böyük maraq göstərdiyini bildirib: “Biz Azərbaycan Qran-prisi barədə məlumatları daha geniş auditoriyaya çatdırmaq üçün yarışı ən yüksək səviyyədə təbliğ etməyə çalışırıq. Bu möhtəşəm sərgidə ötən il də iştirak etmişdik. Ancaq bu il Bakıda keçiriləcək yarışa daha böyük maraq var. Stendimizi ziyarət edən avtoidman həvəskarları böyük həvəslə növbəti yarışı gözlədiklərini bildirdilər. Həmçinin avtoidman sahəsi üzrə ixtisaslaşmış beynəlxalq media qurumlarının təmsilçiləri ilə də görüşlər keçirdik, onlara ilin ən yaxşı yarışına ev sahibliyi etmiş paytaxtımızda baş tutacaq növbəti möhtəşəm Formula-1 yarışı ilə əlaqədar son yenilikləri təqdim etdik. Göstərilən beynəlxalq marağa əsasən deyə bilərəm ki, bu il Azərbaycan Qran-prisi xaricdən əvvəlki illərdəkindən daha çox avtoidman həvəskarı cəlb edəcək”.

Beynəlxalq avtoidman sərgisi hər il Formula-1 çempionatından əvvəl qapalı məkanda keçirilən dünyanın ən böyük avtoidman sərgisidir. Sərgi çərçivəsində ziyarətçilərə Formula-1 bolidləri və digər sürət yarışlarında yer alan avtomobillərlə yanaşı, avtoidman və avtomobil sahələrinə dair son yeniliklərlə əyani şəkildə tanışlıq imkanı təqdim olunur.

## Yerli medianın akkreditasiyası ilə bağlı seminar keçirilib

“Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti (BŞH) Bakıda keçiriləcək növbəti Formula-1 Azərbaycan Qran-prisinə akkreditasiyaya dair yerli media nümayəndələri üçün seminar təşkil edib. Seminarda iştirakçılara builki yarışa me-



dianın akkreditasiyası qaydaları haqqında ətraflı məlumat verilib və qeydiyyat prosesi ilə bağlı digər zəruri məsələlər müzakirə olunub.

Həmçinin görüş zamanı builki çempionatda nəzərdə tutulan dəyişikliklərdən söhbət açılıb və Formula-1 yarışlarını davamlı işıqlandıran jurnalistlər üçün ötən ilin dekabrında keçirilmiş “Sürətin nəbzini tut-2” adlı praktiki təlimin məzunlarına sertifikatlar təqdim olunub.

Seminarda gələn yarış üçün görülən hazırlıqlardan danışan BŞH-nin marketinq və kommunikasiya departamentinin media və yayım əməliyyatları şöbəsinin rəhbəri Ayan Ağayeva iştirakçılara akkreditasiya prosesində uğurlar arzulayıb: “Dünyanın Formula-1 idmanını işıqlandıran əksər aparıcı media qurumları tərəfindən ötən Azərbaycan Qran-prisinin ilin ən yaxşı yarışı seçilməsi bizi çox sevindirdi. Bu il də eyni uğura yiyələnərək bunu ənənəyə çevirmək üçün var gücümüzlə çalışırıq. Yarışı ən yüksək səviyyədə həyata keçirmək qədər, onu bütün Formula-1 həvəskarlarına ən gözəl şəkildə təqdim etmək də vacib rol oynayır. Bu məsələdə sizə böyük iş düşür və siz də indiyədək bunun öhdəsindən layiqincə gəlmisiniz.

Biz inkişafı davamlı etmək istəyirik. Onun üçün çalışırıq ki, yerli media nümayəndələri qısa zamanda bizim üçün yeni olan bu idman sahəsində beynəlxalq aləmdə ən qabaqcıl peşəkar jurnalistlərə çevrilsinlər”.

Qeyd edək ki, yerli media nümayəndələrinin 2018-ci il Formula-1 Azərbaycan Qran-prisinə akkreditasiyası üçün müraciət müddəti yanvarın 31-də başa çatacaq.

# 20 Yanvar şəhidi Müşviq İsayevin xatirəsinə beynəlxalq turnir keçirilib

*Yanvarın 16-17-də Bakı İdman Sarayında 20 Yanvar şəhidi Müşviq İsayevin xatirəsinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmələr arasında sayca 21-ci beynəlxalq turnir keçirilib. Turnirdə Azərbaycan pəhləvanları ilə yanaşı, Gürcüstan, Rusiya, Qazaxıstan və Özbəkistandan olan güləşçilər mübarizə aparıblar.*



Turnirin rəsmi açılış mərasimindən öncə Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və Azərbaycan Güləş Federasiyasının kollektivi, eləcə də qonaq komandaların rəsmi nümayəndələri Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edərək xalqımızın ümummilli lideri Heydər Əliyevin, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsini yad edib, məzarları üzərinə əklil qoyub, gül dəstələri düzüblər.

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov açılış mərasimində çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə bədən tərbiyəsi və idmanın, o cümlədən güləşin inkişafına göstərdiyi diqqət və qayğıdan, habelə idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları uğurlardan söhbət açıb. 1990-cı ilin 20 Yanvar hadisələrini xatırladan İsmayıl İsmayılov şəhid olanlar arasında idmançıların olduğunu, onlardan 3 nəfərinin Milli Qəhrəman adına layiq görüldüyünü bildirib.



Yarış iştirakçılarına öz təşəkkürünü bildirən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev 20 Yanvar şəhidlərinin xalqımız tərəfindən heç vaxt unudulmayacağını diqqətə çatdırıb. Şəhidlərimizin ailələrinin dövlətimiz tərəfindən yüksək diqqət və qayğıyla əhatə olunduğunu deyən Xəzər İsayev bundan sonra şəhidlərin olmamasını arzulayıb. Ölkəmizdə idmanın inkişafına dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışan Xəzər İsayev ölkə təmsilçilərimizin qarşıdakı mötəbər yarışlarda da onlara bəslənilən ümidləri doğruldacaqlarına inandığını vurğulayıb.

Daha sonra çıxış edən Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti Firdovsi Umudov yarış iştirakçılarını salamlayıb, yeniyetmə pəhləvanlara uğurlar arzulayıb. Qeyd edib ki, ölkə başçısı, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan güləşçiləri beynəlxalq arenada, Dünya və Avropa çempionatlarında, Olimpiya Oyunlarında böyük uğurlar qazanıb. Azərbaycan idmançılarının nailiyyətləri ölkəmizdə xalqımız tərəfindən də böyük sevinclə qarşılanır. Natiq bildirib ki, qan yaddaşımız 20 Yanvar hadisələrində vətənpərvərlik göstərərək şəhid olan bütün soydaşlarımız bizim qürur mənbəyimizdir. Bu gün turnirinə toplaşdığımız 20 Yanvar şəhidi Müşviq İsayev də idmançı kimi ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edib.

İlk yarış günündə 45, 51, 60, 71 və 92 kq çəkidə yunan-Roma güləşi üzrə 120 pəhləvan mübarizə aparıb.

İkinci yarış günündə isə 48, 55, 65, 80 və 110 kq çəkidə sərbəst güləş üzrə 159 pəhləvan qüvvəsini sınayıb.

Qalib və mükafatçılara diplom, medal və hədiyyələr təqdim olunub. Hər iki növ üzrə yarışlar zamanı Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası tərəfindən fərqlənənlərə 5 nominasiya üzrə mükafatlar təqdim olunub. Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev tərəfindən Firdovsi Umudov "Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi", Vahid Temirov (Özbəkistan) və Sədi Quliyev (Azərbaycan) "Ədalətli oyun prinsiplərinə sadiq hakim", Vaşa Kraveişvili (Gürcüstan), Ruslan Şəmilov (Azərbaycan) "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi", Andrey Yegerov (Qazaxıstan), Vahid Əlizadə (Azərbaycan) "Ədalətli oyun prinsiplərinə sadiq idmançı" nominasiyaları üzrə mükafata layiq görülüblər.



# "Bütün vaxtımı bilavasitə hazırlığa sərf edəcəyəm"

Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov mart ayında Almaniyada keçiriləcək iddiaçıların turnirinə uzun hazırlığa gərək olmadığı, bunun üçün bir ayın da kifayət edəcəyi fikrindədir.

Şahmatçımız bunu Veyk-an-Zee şəhərində (Niderland) keçirilən və özünün də iştirak etdiyi dünyanın mötəbər şahmat turnirlərindən biri olan "Tata Steel Chess"in rəsmi saytına müsahibəsində bəyan edib.

Ş.Məmmədyarovun sözlərinə görə, adətən, heç kim turnirdən əvvəl öz sirlərini açmaq istəmir, lakin Hollandiyada o, artıq bir neçə sürprizlə qarşılaşıb.

"Üçüncü turda keçirilən partiyada Maksim Matlakov məni öz oyunu ilə təəccübləndirdi. Mən mürəkkəb vəziyyətə düşdüm və bu vəziyyətdən çıxmaq üçün dəqiq gedişlər etmək lazım gəlirdi. Partiya heç-heçə ilə nəticələndi. Ümumilikdə, hələ ki, işlər pis getmir, mənim aktivimdə iki mümkün xaldan 1,5 xal var", - deyə Şəhriyar Məmmədyarov iki partiyanın yekunlarına görə qazanılan xallardan danışıb. Rusiyalı Maksim Matlakovla heç-heçə ona yalnız əlavə yarım xal qazandırıb, 2016-cı il dünya şahmat tacı uğrunda turnirin iştirakçısı Sergey Karyakinlə yanvarın 16-da başa çatmış növbəti partiyada isə daha yarım xal əldə edilib.

Beləliklə, beş turdan sonra azərbaycanlı şahmatçı beş mümkün xaldan 3,5 xal toplayıb və siyahıda dördüncü yeri tutur.

Onun iddiaçıların turnirindən əvvəl bir neçə aylıq məşqlərdən imtina etməsi isə bu prosesin qeyri-effektiv olması ilə əlaqədardır. Şahmatçı hazırlığa cəmi bir ay vaxt sərf etməyi planlaşdırır.

"Mən ilk dəfə 2011-ci ildə Kazanda yarışda iştirak etmişəm və həmin vaxt ilk turda Boris Qelfanda uduzdum. Start oyununa təxminən altı ay hazırlaşdım və elə başlanğıcdaca məğlub oldum. Ona görə də düşünürəm ki, indi uzun müddət hazırlaşmağın mənası yoxdur. Bir ay tamamilə kifayətdir. Veyk-an-Zee turnirindən sonra Berlinədək qalan müddətdə bütün vaxtımı bilavasitə hazırlığa sərf edəcəyəm. Ola bilər ki, bir neçə yoxlama start matçında da iştirak edim", - deyə Məmmədyarov əlavə edib.

Şahmat üzrə dünya çempionatında iddiaçıların turniri martın 10-dan 28-dək Almaniyanın paytaxtı Berlində keçiriləcək. Azərbaycan qrossmeysteri hələ ötən ilin yayında Cenevrədə Qran-prinin nəticələrinə görə iddiaçıların turnirinə vəsiqə qazanıb.

"Qazanılmış uğurların, habelə hazırlıqla bağlı prosesin heç bir sirri yoxdur. Sadəcə, bu, mənim ilim idi və bir çox nailiyyət əldə etdim: iddiaçıların turnirinə vəsiqə qazandım, Vüqar Həşimovun xatirəsinə həsr olunmuş turnirin ikinci dəfə qalibi oldum, yığma komandanın tərkibində Avropa Çempionatında qızıl medal qazandım, dünya reytinqində 2800 səviyyəsini aşdım. Bu uğurları davam etdirməyə çalışacağam", - deyə Şəhriyar Məmmədyarov bildirib.

# Şəhidlər ölmürlər, əbədi yaşayırlar!

**1990**-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə SSRİ rəhbərləri dinc əhalini qabaqcadan xəbərdar etmədən Bakı şəhərinə qoşun yeritdilər.

Bakıya qoşun yeridilməsi və günahsız dinc əhalinin qırılmasına haqq qazandırmaq üçün SSRİ-nin ali rəhbərləri bir-birini inkar edən ziddiyyətli bəyanatlar verirdilər.

Əvvəlcədən düşünülmüş ssenari üzrə igid cavanlarımıza, qocalara, qadınlara və hətta körpələrə də atəş açdılar. Televiziya qurğuları dağıdıldı, radionun səsi kəsildi. Şəhərin "əməliyyat" aparılacaq massivlərində elektrik xətlərini iflic etdilər ki, xəbərdarlıq etmədən əliyalın, dinc əhaliyə divan tutsunlar, bəd əməllərini görən olmasın, istədiklərini edə bilsinlər.

Ayrı-ayrı adamların məsuliyyətsiz çıxışlarını öz suverenliyi, azadlığı uğrunda ayağa qalxan xalqın adı ilə bağlayıb "başqa çıxış yolu yox idi" deyərək qırğın törədənlər üçün əslində ən əlverişli fürsət ələ düşmüşdü.

Bakıda fövqəladə vəziyyət barədə fərman "Zaman" proqramında elan olunmalı idi. Amma televiziyanın enerji blokunun partladılması buna imkan vermədi. Bakı əhalisi şəhərdə fövqəladə vəziyyət elan olunduğunu ancaq səhər saat 6-ya qədər yüzlərlə adamın qanı axıdıldıqdan sonra bildi. Qanlı Yanvar günlərində xalqımız öz yolunu müəyyənləşdirdi, qanı axa-axa, hər cür məhrumiyyətlərə sinə gərə-gərə, azadlığa doğru addımladı.

Mərkəzdəki Azərbaycana düşmən qrupların və daxildəki satqınların səyi nəticəsində azərbaycanlıların Qarabağdakı dədə-baba torpaqlarından köçürülməsi həyata keçirildi. Bunun ardınca tarixi cinayət - 1990-cı il qanlı Yanvar qırğını baş verdi: 744 nəfər yaralandı, 131 nəfər şəhid oldu. 400 nəfər həbs olundu, 4 nəfər itkin düşdü. Onlardan - 117-si azərbaycanlı, 6-sı rus, 3-ü tatar və 3-ü yəhudi idi. Həmin şəhidlər arasında güləş üzrə idman ustası Müşfiq İsayev də var idi.

Rus ordusunun Qorbaçovun başçılığı ilə Bakıda törətdiyi dəhşətli hadisəni bütün dünyaya bəyan etmək üçün Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək jurnalistlərin qarşısında SSRİ-i tarixində ilk dəfə olaraq, o dövrkü Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Mixail Qorbaçovu soydaşlarımızın qətlində ittiham etdi və bildirdi ki, bu gün Azərbaycan xalqının taleyinə qanlı, faciəli gün kimi şəhid övladların qanı ilə yazılmışdır. Yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakının küçələrində, meydanlarında ən müasir silahlarla xalq atəşə tutuldu, tanklar dinc əhalini amansızcasına, vəhşicəsinə məhv etməyə başladı. Bu çıxışdan sonra isə Heydər Əliyev xalqının ağır və faciəli günlərində vətənə dönməyi qərarlaşdırdı. Dağılmaqda olan imperiya Heydər Əliyevin şəxsiyyətinə və bu dahi insanın siyasi baxışlarına yaxşı bələd olduğu üçün onun öz doğma vətəninə dönməsinə böyük manelər törətməyə başlasa da, dahi siyasətçi Heydər Əliyev bütün bu maneələri dəf edərək Bakıya dönməyə müvəffəq oldu. Bu dövrdə öz çirkin əməllərini həyata keçirmək istəyənlər Heydər Əliyevin Bakıda siyasi fəaliyyətinə maneələr yaradır və onun ölkəni tərk etməsini istəyirdilər. Xalqımızın fəlakətlərə sürükləndiyi bir vaxtda, erməni işğalçılarının ölkəmizin içərilərinə doğru hərəkət etdiyi bir zamanda Naxçıvan əhalisi yekdillik və uzaqgörənliklə Heydər Əliyevi Azərbaycan Respublikası Ali Sovetinə deputat və özlərinə rəhbər seçdi. Yalnız bundan sonra taleyin ümidinə buraxılmış Naxçıvan, Qarabağ və ümumiyyətlə, bütöv Azərbaycan fəlakətdən qurtulmuş oldu.








İnsanın vətənpərvərlik hissinə malik olması ən ali əxlaqi-mənəvi məziyyətləri sırasında ilkinlərdən hesab olunur. Çünki vətənpərvərliyin əsas komponentlərinə doğulduğun torpağı, yaşadığın ölkəni sevmək, onun uğrunda çalışmaq, ona əməllərin ilə faydalı olmaq, onu qorumaq kimi keyfiyyətlər daxildir. Axı Vətən anadır. Onun qədrini bilməliyik, çətinliklərinə dözməliyik. Vətən sevgisi, Vətənə sədaqət, onun çiçəklənməsi üçün çalışmağa hazır olmaq ən çətin anlarda belə adamların qüvvələrini vahid məqsədə - Vətənin azadlığı, xilası naminə səfərbər edir.

*"Şəhidlər vətəni sevən əsl Azərbaycan gəncləri olublar".*

***Heydər Əliyev***

Azərbaycan xalqının milli suverenliyi təmin edildiyi vaxtdan indiyədək keçdiyi yolda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbələrinin vətənpərvərlik təşəbbüsü diqqətə layiqdir. Akademiyamızda aparılan ictimai-faydalı işlər nəticə etibarilə idmançı tələbələrdə zəhmətsevərlik, vətənpərvərlik və həyatda öz yerini tanımaq kimi keyfiyyətlər tərbiyə edir.

1990-cı il yanvarın 20-də Sovet imperiyasının respublikamıza xaincəsinə qəfil hücumu Azərbaycanın dinc həyatını pozdu. İntiqama, şəhidlərin amallarını yaşatmağa, azadlığa, torpaqlarımızın bütövlüyünə and içdik. Bu vəhşiliyi heç cür, heç bir vəchlə bağışlaya bilmərik. Erməni işğalçıları tərəfindən Kərgicahan dağıdıldı, Malıbəyli, Meşəli viran qoyuldu. Azərbaycan xalqı elan olunmamış müharibəyə, Vətəni müdafiəyə qalxdı. Müharibənin ilk günlərindən akademiyamızın nəzdində yaradılmış "Qarabağ" qərargahına 200-dən artıq ərizə gəlmişdi. Akademiyada yaradılan qərargaha mən özüm rəhbərlik edirdim. Akademiyamızın tələbələrinin vətənpərvərlik tərbiyəsi həmişə diqqət mərkəzində olmuşdur. Dağlıq Qarabağda, eləcə də sərhəd rayonlarında erməni işğalçılarının törətdiyi cinayətlərə akademiyamızda oxuyan tələbələr dözməyib cəbhəyə yollandılar.

Tələbə döyüşçülərimiz cəbhədə böyük igidlik və şücaət göstərmişlər. Təkcə Laçın rayonun müdafiəsində 30-dan artıq idmançı döyüşçümüz vuruşurdu. Tələbələrimizin döyüşlərdə göstərdikləri şücaətlərə görə "N" saylı hərbi hissənin komandiri tərəfindən rektorluğun adına çoxlu teleqram və məktublar daxil olmuşdu.

Qarabağda və Ermənistanın həmsərhəd rayonlarında vuruşan tələbələrimizlə əlaqəmiz mümkün olsun deyə, akademiyada qərərgah yaradılmışdı. Vətənin müdafiəsi yolunda yaralanan tələbə və məzunlarımızdan Allahverdi Əliyev, Şakir Əhmədov, Qafqaz Əhmədov Şünasi Babayev, Rafiq Zülfüqarov, Sərvər Mövsümov, Şahin Quliyev, Böyükişi Atakişiyev, Baba Babayev, Şaiq Hüseynov və başqaları müalicə olunub sağaldıqdan sonra yenidən cəbhəyə qayıdaraq igidliklə döyüşmüşlər.

Qarabağın dağlıq hissəsində baş verən hadisələrdə igidlik, qəhrəmanlıq və vətənpərvərlik nümunəsi göstərdiklərinə görə iki məzunumuz - Əliyar Əliyev və İlqar İsmayılov Milli Qəhrəman adına layiq görülmüşdür. Qarabağ uğrunda döyüşlərdə 33 tələbə və məzunlarımız igidliklə vuruşaraq şəhid olmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir ki, "Ya ayağa qalxıb torpaqlarımızı azad etməli, ya məhv olmalı, ya da millət olmadığımızı etiraf etməliyik".

Min illərdir ki, insanlar ölür, lakin xalq inamsız mövcud ola bilməz. Xalqı yaşadan və qələbəyə ruhlandıran onun inamıdır. Hazırda məhz belə bir inamı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımıza və gənclərimizə yarada bilmişdir. İnanırıq ki, "Azərbaycana sədaqətdə, məhəbbətdə, alovlu vətənpərvər kimi xidmət etməkdə müdrik siyasətçi Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı Prezidentimiz İlham Əliyev kimi olmalı, ona oxşamalı, ondan öyrənməli" devizi hər zaman gənclərin mübarizə və həyat amalına çevriləcək.

***Dilqəm Quliyev,***
***professor***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”

# Rövşən Bayramov:
# “Olimpiya çempionu yetişdirmək istəyirəm”

***Elə insanlar var ki, hansı zirvədə olurlarsa, olsunlar heç dəyişmirlər. Onlar nə qədər uğur qazansalar da, əvvəlki kimi saf, təmiz və səmimi qalırlar. Elə Pekin-2008, London-2012 Olimpiadasının gümüş mükafatçısı, dünya və 2 qat Avropa çempionu, güləşçimiz Rövşən Bayramov kimi.***

***30 yaşını ötən il qeyd edən tanınmış idmançımız mümküm qədər mətbuatdan uzaq qaçır və “üzdə” olmağı xoşlamır. “Olimpiya dünyası” qəzetinin dəvətini məmnuniyyətlə qəbul edən Rövşən Bayramov idman karyerasından, iştirak etdiyi olimpiadalardan, onu narahat edən məsələlərdən və arzularından danışdı.***

***- Rövşən, səni güləşə yönəldən kim olub?***

- Biz 8-ci mikrorayonda yaşayırdıq. Yayda, tətil günlərində Suraxanıya, bibimgilə qonaq gedirdim. Bütün günü bibim uğaqları ilə ora-bura qaçır, dəcəllik edirdik. Ən çox şuluqluq edən təbii ki, mən idim. Bir gün bibim əlimdən tutub məni “Neftçi” idman klubuna apardı. Düzü, getmək istəmirdim. Yunan-Roma güləşi üzrə məşqçi Güləhməd Hüseynovun yanında olduq. Deyəsən, məşqçinin xoşuna gəlmişdim. Beləliklə, 12 yaşından güləşlə məşğul olmağa başladım. Güləhməd müəllim çox həssas və istedadlı məşqçi idi. Yetirmələrinə xüsusi qayğı ilə yanaşırdı.

***- Bəs yol uzaq deyildi?***

- 8-ci mikrarayondan məşq üçün Suraxanıya gedib-gəlmək çox çətin idi. Dərslərimi çatdıra bilmirdim. Məktəbdə dərslər başlayandan sonra məşqlərə getmədim. 2 aydan sonra Güləhməd müəllim məni yanına çağırıb dedi; “Səndən yaxşı güləşçi çıxacaq. Niyə, məşqlərə gəlmirsən?”. Sonra valideynlərim məni Suraxanıdakı 254 saylı məktəbə yazdırdılar. Beləliklə, yenidən məşqlərə davam etdim. Bir sözlə, 1999-cu ildən idmandayam. O vaxtdan indiyə kimi “Neftçi” İdman Sağlamlıq Mərkəzi İctimai Birliyinin üzvüyəm.

***- Nəticələr biri-birinin ardınca gəldi...***

- 2001-ci ildə yeniyetmələr arasında respublika, 2002-ci ildə isə Avropa çempionu oldum. 2003-cü ildən yığmadayam. Böyüklər arasında ilk nəticəm 2006-cı ildə Bakıda keçirilən Heydər Əliyev adına Qızıl Qran-pri turnirinin qalibi olmağım idi. Həmin il Avropa çempionatında (Moskva) bürünc medal qazandım. Çində təşkil edilən dünya çempionatında isə 2-ci yeri tutdum. Sonra isə hərbçilərin dünya çempionatında uğurlu nəticə əldə etdim. Bir sözlə, eyni ildə dörd nəticəyə sahib oldum. 2006-cı ildə Gənclər və İdman Nazirliyi tərəfindən “Ən yaxşı idmançı” adına layiq görüldüm.

***- Bakıda təşkil edilən dünya çempionatında zəif çıxış etməyinin səbəbi nə idi?***

- 2007-ci ildə Bolqarıstanda keçirilən Avropa çempionatında müvəfəqiyyətlə çıxış edərək qızıl medala sahib çıxdım. Həmin il Bakıda keçirilən dünya çempionatında isə təəssüf ki, yer tuta bilmədim. Yarışda bütün fikrimi və diqqətimi ilk erməni rəqibimlə mübarizəyə cəmləmişdim. Bu görüşə çox əhəmiyyət verirdim. Yarışı udmasam da, məhz bu görüşdən qalib ayrılmağı qarşıma məqsəd qoymuşdum. Elə də oldu. Roman Amoyanı döşəkdən kənarlaşdıranda tamaşaçıların alqışları mənim üçün hər şeyə bərabər idi.

## “İdmançının karyerası elə onun həyatıdır”

***- Həmin rəqiblə bir il sonra yenidən görüşdün?***

- 2008-ci Finlandiyanın Tampere şəhərində keçirilən Avropa çempionatında Roman Amoyanla yenidən görüşdüm, həm də finalda. Finala qədər bütün rəqiblərimi mübarizədən kənarlaşdırdım. 2 qat Avropa çempionu olmaq üçün ermənistanlı güləşçini məğlub etmək o qədər də çətin olmadı. Bu yarış, həm də Pekin-2008 Olimpiadasına lisenziya verirdi. Bir də lisenziya yalnız qızıl medal alana verilirdi. Beləliklə, mən həm 2-ci dəfə Avropa çempionu adına layiq görüldüm, həm də olimpiadaya lisenziya qazandım.

***- Belə çıxır ki, 2008-ci il həyatında ən uğurlu illərdəndir?***

- İdmançının karyerası elə onun həyatıdır. Karyeramda ən uca zirvələri 2008-ci və 2012-ci illərdə fəth etmişəm. 2008-ci ildə Heydər Əliyevin xatirəsinə keçirilən Qızıl Qran-pri yarışlarının qalibi oldum. Həmin il eyni zamanda Avropa çempionu adına və Pekin-2008 Olimpiadasının gümüş medalına layiq görüldüm. 2009-cu ildə də FİLA tərəfindən “İlin ən yaxşı güləşçisi” adını aldım.

***- Yeri gəlmişkən, Pekin-2008 Olimpiadasında final görüşünü necə xatırlayırsan?***



- Finalda Rusiya güləşçisi Nazir Mankiyevlə qarşılaşdım. Hakimlər rəqibə kömək elədilər. Fənd məqamında bəzi haqsızlıqlar oldu və təəssüf ki, qızıl medaldan məhrum oldum. Güləşdə yarışın taleyini 60-70 faiz demək olar ki, hakimlər həll edirlər. Böyükhesablı və yaxud təmiz xalla qalib gəlməlisən ki, hakimlər sənə “ilişmək” üçün səbəb axtarmasınlar. Yarışın hakimi olan insanlar - hakimlər idmançını “sındırmaq” gücünə malikdirlər.

***- Həmin illərdə idmandan uzaqlaşdın...***

- Olimpiadadan sonra keçirilən dünya çempionatında 3-cü yeri tutdum. Bu, mənə çox pis təsir etdi və ruh düşkünlüyü yaratdı. Qərara aldım ki, idmandan uzaqlaşım. Beləliklə, 2009-cu və 2010-cu ildə yarışlarda iştirak etmədim, təkcə Macarıstanda təşkil edilən beynəlxalq yarışdan başqa. Orda da 2-ci yeri tutdum. Nə gizlədim, yarış əhval-ruhiyyəsində deyildim. 2010-cü ildə Avropa çempionatı keçirilirdi. Çempionata namizəd kimi mən getməliydim. Elçin Cəfərova dedim ki, mən bu yarışa getməkdən imtina edirəm. Çünki yaxşı çıxış etməyəcəyimi bilirdim. Beləliklə, Avropa çempionatına mənim əvəzimə Elçin Əliyev getdi və çempion oldu.

## “Bu da bir taledir”

***- Səni yenidən güləşə qaytaran nə oldu?***

- 2010-cu ildə yunan-Roma güləşi üzrə yığmaya Fərid Mansurov rəhbərlik etməyə başladı. Həmin il Həsən Əliyev dünya çempionu oldu, 3 güləşçimiz çempionatın bürünc medalını qazandı. Yarışlarda iştirak etməsəm də, məşqlərimə davam edirdim. Fərid müəllim mənə məsləhət gördü ki, 2011-ci ilin əvvəlində keçiriləcək Qızıl Qran-pri yarışlarında iştirak edim. Eyni çəkidə məndən başqa 3 idmançımız da güləşirdi. Fərid müəllim demişdi ki, bu yarışın qalibi kim olsa, İstanbulda təşkil ediləcək dünya çempionatına da, o gedəcək. Finalda komanda yoldaşım Taleh Məmmədovla qarşılaşdım və onu məğlub etdim. Qələbədən sonra dünya çempionatına hazırlıq üçün ciddi məşqlərə başladım.

***- London-2012 Olimpiadasına vəsiqəni də məhz İstanbulda keçirilən dünya çempionatında qazandın?***

- 2011-ci il də həyatımda yaddaqalan illərdən biridir. Həmin ildə dünya çempionu tituluna layiq görüldükdən sonra London şəhərində keçiriləcək XXX Yay Olimpiya Oyunlarına vəsiqə qazandım. Bu olimpiadada da, Pekində olduğu kimi gümüş medal qazandım.

***- Beləliklə, “gümüş” oğlan adını aldın...***

- (gülür). Bu da bir taledir. Londonda qızıl medal qazanmağı çox istəyirdim, amma alınmadı.

***- Güləşdən başqa, hansı idman növünə marağın var?***

- Futbola baxmağı xoşlamasam da, futbol oynamağı çox sevirəm. Hər həftənin 2-ci günü Gənclər və İdman Nazirliyindən olan tanışlarla birlikdə futbol meydançasına yığışırıq. Futbolu da, güləşlə eyni səviyyədə sevirəm. Həftənin 6-cı günü isə karyerasını başa vuran güləşçilərlə birlikdə Tofiq Bəhramov adına stadionda basketbol oynayırıq.

***- Səncə, idmanda şansın rolu nə qədər böyükdür?***

- Şanslı insanlara qibtə edirəm. Amma həyatda olduğu kimi, idmanda da hər şeyi şansa buraxmaq düzgün deyil. Uğur qazanmaq üçün zəhmət çəkmək, çox çalışmaq və rejimə riayət etmək mütləqdir. Vaxtlı-vaxtında yemək, yatmaq, düzgün qidalanmaq, psixoloji cəhətdən hazırlıqlı olmaq idmançı üçün mühüm şərtlərdir.

***- “Gümüş” oğlanı küsdürən nədir?***

- Ədalətsizlik.

***- Özünü iki kəlmə ilə necə ifadə edərdin?***

- Səbirsiz insan.

***- Nədənsə bezəndə, yorulanda səni yenidən həyata bağlayan nədir?***

- Uca Tanrıya olan sevgim və oğlum Əli.

***- Kimdənsə nəsə umursan?***

- Həyatımda nə varsa, nə əldə etmişəmsə, ona qane olan adamam. Özüm üçün kimdənsə nəsə xahiş etməyə üzüm gəlmir. İnsan nəyəsə nail olmaq üçün qarşısına məqsəd qoymalı və ona doğru getməlidir. Bu yol nə qədər çətin və enişli-yoxuşlu olsa belə, bizim məqsədimiz idmanda yüksək nəticələr əldə etmək, ölkəmizi dünyada tanıtmaqdır.

***- London-2012 Olimpiadasında qızıl medaldan səni məhrum edən nə oldu?***

- Həm Pekin-2008, həm də London-2012 Olimpiadasında qızıl medal almaq imkanım var idi, lakin bu şansdan istifadə bilmədim. Pekində hakim ədalətsizliyinə, Londonda isə öz səhvimə görə. Finalda 6 qat dünya çempionu olan iranlı güləşçi Həmid Suriyanla qarşılaşdım. Son saniyələrdə ona 2 xal verdim. İkinci hissənin ortasında səbirsizlik etdim. Fəndi parter vəziyyətində deyil, ayaqüstə işlətmək istəyim mənə baha başa gəldi. Təcrübəli rəqib mənə göz açmağa imkan vermədi. Beləliklə, Olimpiya çempionu əks fəndlə məndən xal alan İran güləşçisi oldu.

## “Diqqət və qayğı olan yerdə inkişaf da var”

***- Olimpiya çempionu olmadığın üçün çox təəssüflənirsən?***



- Əlbəttə, təəssüflənirəm. Amma illərlə məşq edib Olimpiya Oyunlarına düşə bilməyən idmançılar da var. Üç dəfə mötəbər idman tədbirində iştirak etmişəm və ikisində gümüş medal qazanmışam. Dövlətimiz idmançıların həyat şəraitini yaxşılaşdırmaq üçün nə lazımdırsa, edir. Azərbaycan Güləş Federasiyası güləşçilərin təlim-məşq toplanışlarında, yarışlarda iştirakı və sosial vəziyyətlərinin yaxşılaşdırılması öz kömək və dəstəyini əsirgəmir. Səbəb olmasa, nəticə də yoxdur. Diqqət və qayğı olan yerdə mütləq irəliləyiş, inkişaf həmişə var və olacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər dəfə Olimpiya Oyunlarından əvvəl və sonra idmançılarla görüşür, söhbət edir, yarış haqqında, nəticələrlə bağlı öz fikirlərini bildirir, tövsiyələrini verir. Mən deyərdim ki, ölkə rəhbəri idmançıların ən yaxın dostudur. Dövlətimizin məqsədi insanların yaxşı və firavan yaşamasını təmin etmək, onların sağlamlığının qayğısına qalmaq, eləcə də idman vasitəsilə Azərbaycanın dünyada nüfuzunun artırılmasıdır. Biz, idmançılar da çalışırıq ki, nə qədər gücümüz, yarış qabiliyyıətimiz var, bu vətənə, bu ölkəyə şərəflə xidmət edək. Müqəddəs bayrağımızı dalğalandırmaqdan, himnimizi səsləndirməkdən qürurverici daha nə ola bilər?

***- Səhv etmirəmsə, London-2012 Olimiadasından sonra yenə idmana fasilə verdin?***

- 2013 və 2014-cü illərdə demək olar ki, heç bir beynəlxalq turnirdə iştirak etmədim. Həmin illərdə yunan-Roma komandasına iranlı baş məşqçi təyin olunmuşdu. Bizim onunla məşqlə bağlı bəzi problərimiz oldu, başqa sözlə, bizimki alınmadı. Bu insan yığmaya yeni gələnlə peşəkar güləşçi arasında heç bir fərq qoymurdu, hamıya eyni üsulla yanaşırdı. Bu da məni qıcıqlandırırdı. Məsələn, elə idmançı var ki, ona daim məşq etmək lazımdır, eləsi də var ki, artıq məşq etmək ona fayda əvəzinə ziyan vurur.

***- Hazırda hansı məşqçi ilə çalışırsan?***

- 2015-ci ildən gənclərdən ibarət yığmanın baş məşqçisi İlqar Abdulovla çalışıram. İlqar müəllimlə işləyəndən sonra ABŞ-ın Las-Veqas şəhərində keçirilən dünya çempionatında iştirak etdim. Lisenziya xarakterli bu yarışda güclü B qrupuna düşdüm. Birinci görüşü qələbə ilə başa vurdum. İkinci rəqibim Şimali Koreyadan olan dünya çempioni idi. Onu da məğlub etdikdən sonra əsas iranlı rəqibim -7 qat dünya və Olimpiya çempionu Həmid Suriyanla qarşılaşdım. Rəqibim görüşün əvvəlindən özünü aqressiv aparırdı. Nəticədə başımdan ağır zədə aldım. Hakimlər ona xəbərdarlıq edəndən sonra 2 xalını mənə verdilər. İranlı idmançı yenə kobudcasına güləşməyə davam edirdi. İkinci xəbərdarlıq aldıqdan sonra hakimlər onu döşəkdən uzaqlaşdıraraq qələbəni mənə verdilər. Yarımfinalda qırğız idmançısı ilə görüşdüm. Həmin idmançıya da təmiz qələbə ilə üstün gəldim və finala çıxdım. Finalda Kuba təmsilçisi ilə görüşüm uğursuz keçsə də, mən artıq Rio-2016-ya lisenziya qazanmışdım.

***- Rio-2016 Olimpiadasını medalsız başa vurdun...***

- Olimpiadada 5-ci yeri tutdum. Yenə də səbirsizliyim, tələskənliyim mənə mane oldu...

***- Güləşdə tez-tez edilən qayda dəyişiliklәri idmançıya necə təsir edir?***

- Qayda dəyişiklikləri idmançıya mənfi təsir edir. Xüsusilə, çəki ilə bağlı qaydaların tez-tez dəyişdirilməsi güləşçini çox yorur. Bəzən elə olur ki, günə 1kq arıqlamaq lazım gəlir.

***- Rövşən, gələcəkdə məşqçilik etmək istərdinmi?***

- Çox istərdim. Bir ara söhbət vardı ki, məni böyüklər arasında yığmaya ikinci məşqçi kimi götürsünlər. Hələ ki, bu məsələ qalıb. İdmançı yalnız özü üçün cavabdehdirsə, məşqçi bütün idmançılar üçün məsuliyyət daşıyır. Ümid edirəm ki, bu işin öhdəsindən gələrəm.

## İdman həyati tələbata çevrilib

***- Uşaq və gənclərin ildən-ilə idmana marağı artır. Sən necə düşünürsən?***

- Azərbaycanda idmana böyük maraq var. Kiçikyaşlı uşaqların, yeniyetmələrin, gənclərin idmanla məşğul olmaları bir həyati tələbata çevrilib. Sosial şəbəkələrdə, televiziya vasitəsilə verilən xəbərlərdə istedadlı idmançıların yetişdiyinin şahidi oluruq. Hərdən köhnə zalımıza gedirəm və orada 4-5 yaşlı uşaqların necə həvəslə güləşdiklərinin şahidi oluram. Yaxşı məşqçinin rəhbərliyi altında belə uşaq və gənclərimiz sabahın çempionları olacaqlar.

***- Əsəbiləşəndə səni özünə qaytaran nədir?***

- Yalqızlıq. Nəsə xoşuma gəlməyən, məni əsəbləşdirən bir hadisə baş verəndə oradan uzaqlaşıram. Tək qalmaqla sakitləşirəm.

***- Elə bir yer varmı?***

- (gülümsəyir) Var. Mərdəkandakı bağımıza gedirəm. Həyət-bacaya baxıram, ağacların dibini belləyirəm, yer qazıram. Sakitləşəndən sonra qayıdıram şəhərə.

***- Karyeranda unutmadığın an, hadisə?***

- İdmandan neçə dəfə getmək istəsəm də, yenə qayıtmışam. 2009-cu ildəki dünya çempionatında bürünc medal qazandıqdan sonra içimdə bir ümidsizlik yarandı. Düşündüm ki, mən daha əvvəlki kimi güləşə bilməyəcəyəm. Lakin qayıtdıqdan sonra London-2012 Olimpiadasının və dünya çempionatının ikincisi oldum. Sanki bununla karyeramda yeni səhifə yazdım.

***- Hər gələn yeni il idmançının karyerasında yeni səhifə deməkdir...***

- Həmişə məşqçilərimiz deyir ki, əldə etdiyiniz və etmədiyiniz nə varsa, hamısı köhnə ildə qaldı. Yeni il, yeni səhifə deməkdir. Çalışın ki, açılan yeni səhifəni yaxşı yaza biləsiniz.

***- Ən böyük arzun nədir?***

- Özüm Olimpiya çempionu ola bilmədim. Məşqçi kimi Olimpiya çempionu yetişdirmək istəyirəm.

***- Hərdən yorulursanmı?***

- 18 ildir ki, güləşdəyəm. Bəzən həyat, bəzən də məşqlər, gərgin rejim yorur adamı. Elə olur ki, xeyirə-şərə gedə bilmirsən və s.

***- Dostluğa münasibətin?***

- Dost o kəsdir ki, özün kimi inanırsan, etibar edirsən, dərdini, sevincini bölüşürsən. Onlardan biri də Elvin Mürsəliyevdir. Mən həm də onun şəxsi məşqçisiyəm. Ötən ilin dekabr ayında böyüklər arasında Azərbaycan çempionatında məşqçi olmağın həyəcanını yaşadım. Elvin həmin yarışda 2-ci oldu.

***- İnsan özünü nə vaxt xoşbəxt hiss edir?***

- İstədiyi arzuya, qarşısına qoyduğu məqsədə çatanda insan xoşbəxt olur.

***- Bəzən nəsə əldə etmək üçün nələri isə qurban verməli oluruq...***

- Həyatda uğur əldə etmək üçün nələri isə qurban verməyə məcbursan. Peşəkar idmanda nailiyyət əldə etmək üçün biz uşaqlığımızı və gəncliyimizi qurban verməli oluruq.

***- Özün də etiraf edirsən ki, səbirsizliyin sənə çox mane olub?***

- (Gülür) Sizinlə razıyam. Amma fikirləşəndə ki, səbirsizliyimlə bu cür nailiyyətləri əldə etmişəm, özümə təskinlik verirəm.

***- Hansı janrda musiqiyə qulaq asırsan?***

- Muğama qulaq asıram. Çünki onlar xəzinədir, nadir incilərdir. Alim Qasımovun ifasında muğamlara qulaq asmaqdan zövq alıram.

***- Mətbəxlə aran necədir?***

- Tək olanda özüm üçün nəsə bişirə bilirəm. Kartof qızardıram, pomidor çığırtması hazırlaya bilirəm. Yeməklə də aram pis deyil (gülür).

***- Əli idmana gedirmi?***

- Oğlumun 5 yaşı var. Hələ heç bir idman növü ilə məşğul olmur. Gimnastikaya aparmaq istəyirik. Əvvəllər məşqlərə görə onunla vaxt keçirə bilmirdim. İndi bir yerdə çox oluruq.

***- İstərdinmi, o da güləşçi olsun?***

- Mənim istəməyim azdır. Gərək, o istəsin. İnsan seçdiyi, arxasınca getdiyi peşəni sevməli, gördüyü işdən zövq almalıdır. Əks halda heç nə alınmayacaq.

***- Kinoya baxırsanmı?***

- Komediya janrında kinolara baxıram. Azərbaycan filmlərindən “Yol əhvalatı”, “Bəxt üzüyü”, “Yuxu”dan çox xoşum gəlir.

***- “Olimpiya dünyası” qəzetinə nə arzu edərdin?***

- Qəzetiniz ölkədə idman və Olimpiya Hərəkatının təbliğində öz layiqli imzasını qoyan idman nəşridir. Hər zaman səhifələrinizdə idmançılara yer ayırırsınız. Məni də unutmadığınıza görə təşəkkür edirəm. Bütün idmançılar, güləşçilər adından kollektivinizə öz minnətdarlığımı bildirirəm və gələcək işlərinizdə uğurlar arzulayıram.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# FUTBOL

***2017-ci il Azərbaycan futbolu üçün yaddaqalan illərdən biri oldu. Ölkə futbolunda həm yaxşı, həm də pis mənada bir neçə hadisə baş verdi. Bakı şəhərinin 2019-cu ildə Avropa Liqasının finalına ev sahibliyi etməsi qərarının verilməsini, millimizin DÇ-2018-in seçmə mərhələsində rekord xal toplamasını, "Qarabağ"ın Çempionlar Liqasının qrupunda iştirakını və U-23 yığmamızın IV İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanmasını tarixi an kimi qeyd etmək olar. Lakin istər Premyer Liqada, istərsə də I Divizionda danışılmış oyunlar və manipulyasiya faktı futbolumuza ciddi ləkə oldu.***

***İnanırıq ki, futbolumuzda ötən il arzu edilən, lakin reallaşmayan nailiyyətlərə 2018-ci ildə nail olacağıq. Təbii ki, milli komandamızın Millətlər Liqasında ən yaxşı göstəriciyə imza atması və avrokuboklara qatılacaq klublarımızın qrup mərhələsində daha da uğurlu çıxış etmək arzusu lap öndə durur...***



# Azərbaycan futbolu-2017: "qızıl dubl", debütdə zəfər, ÇL-in qrupu və rekordu yeniləyən millimiz

## Ağdam təmsilçisindən ardıcıl 3-cü "qızıl dubl"

2017-ci il bəzi klublara düşərli oldu, bəzilərinə isə yox. Son illər Azərbaycan futbolunda "hegemonluq" edən "Qarabağ" ənənəsini bu il də davam etdirdi. Ağdam təmsilçisi 62 xalla Topaz Premyer Liqasının 2016/2017-ci illər mövsümünün qalibi oldu. "Qəbələ" (52 xal) gümüş, "İnter" (43 xal) isə bürünc medallarla kifayətləndi. 39 xal toplayan "Zirə" klubu çempionatı 4-cü pillədə başa vurdu. AZAL klubu turnir cədvəlini sonuncu pillədə başa vurduğuna görə, I Diviziona yuvarlandı. "Təyyarəçilər"i "Səbail" klubu əvəz etdi.

Premyer Liqada ən yaxın izləyicisi "Qəbələ" klubunu yekunda 10 xal qabaqlayan Qurban Qurbanovun yetirmələri ölkə kubokunun finalında da məhz Qəbələ təmsilçisi ilə qarşılaşdı. Finalda qalib gələn "Qarabağ" klubu "qızıl dubl"a imza atdı. Bu, ağdamlıların ardıcıl 3-cü "qızıl dubl"u kimi tarixə düşdü. Ölkə çempionatında son 4 mövsümün qalibi olan Qurban Qurbanovun yetirmələri kubokda da 3 il idi ki, titulu heç kimə vermirdilər. Ancaq cari mövsümün 1/4 final mərhələsində "Sumqayıt"a məğlub olan "Qarabağ"ın artıq ənənəsini davam etdirməyəcəyi dəqiqdir.

Qeyd edək ki, çempionatın nəticələrinə, əsasən, ötən il ölkəmizi qitəmiqyaslı arenalarda 4 komanda təmsil etdi. UEFA Çempionlar Liqasında "Qarabağ", Avropa Liqasında isə "Qəbələ", "İnter" ("Keşlə") və "Zirə" klubları çıxış etdilər.

## U-23 debütdə çempion oldu

Mayın 12-dən 22-dək ölkəmizdə IV İslam Həmrəyliyi Oyunları keçirildi. Qızıl medal sayına görə mötəbər turnirdə lider olan Azərbaycanın futbol üzrə milli komandası çempion adını qazandı. U-23 yığmamız turniri Yaşar Vahabzadənin rəhbərliyi altında keçirdi. Təmsilçimiz Kamerun, Mərakeş və Səudiyyə Ərəbistanı milliləri ilə birlikdə A qrupunda mübarizə apardı. 5 xalla qrupu ikinci pillədə başa vuran komandamız yarımfinalda Əlcəzair millisi ilə qarşılaşdı. Matç futbolçularımızın 2:0 hesablı qələbəsi ilə başa çatdı. Millimiz həlledici oyunda Oman yığmasını 2:1 hesabı ilə məğlub etdi. Beləliklə, ilk dəfə İslam Həmrəyliyi Oyunlarında iştirak edən komandamız qızıl medalların sahibi oldu.

## Təmsilçilərimizin uğursuz çıxışlarını...

Ötən il təmsilçilərimiz Avropa arenalarında da mübarizə apardılar. "Keşlə" və "Zirə" avrokuboklarda mübarizəyə qoşulan ilk klublarımız oldular. Püşkə əsasən, Keşlə təmsilçiləri Avropa Liqasının birinci mərhələsində Serbiyanın "Mladost" klubu ilə mübarizə apardı. Səfərdə rəqibini 3:0 hesabı ilə məğlub edən bakılılar evdə də qələbə qazandılar (2:0). İki oyunun nəticəsinə görə 5:0 hesabı ilə üstün olan "Keşlə" növbəti mərhələdə Lüksemburqun "Fola" klubu ilə qarşılaşdı. Rəqiblə ilk oyunu evdə keçirən Keşlə təmsilçisi minimum hesabla qalib gəldi (1:0). Səfərdə isə böyük hesabla (1:4) məğlub olan təmsilçimiz turnirlə vaxtından əvvəl vidalaşdı.

Digər təmsilçimiz "Zirə" avroliqanın birinci mərhələsində Lüksemburqun "Differdanj" klubu ilə münasibətlərinə aydınlıq gətirdi. Hər iki oyunda rəqibini məğlub edən Zirə təmsilçisi (2:0, 2:1) növbəti mərhələyə adlayanlar siyahısına adını yazdırdı. "Zirə" növbəti mərhələdə Rumıniyanın "Astra" klubunu sınağa çəkdi. Səfərdə 1:3 hesabı ilə məğlub olan zirəlilər evdə heç-heçə ilə kifayətləndilər (0:0). İki oyunun nəticəsinə görə, rumınlar növbəti mərhələyə vəsiqə qazandılar.

Avroliqaya ikinci mərhələdən qoşulan "Qəbələ" Polşanın "Yagelloniya" klubu ilə qarşılaşdı. İlk oyunda evdə heç-heçə edən (1:1) Qəbələ təmsilçisi səfərdə 2:0 hesabı ilə qələbə qazanaraq növbəti mərhələyə vəsiqə qazandı. 3-cü təsnifat mərhələsində təmsilçimiz Yunanıstanın "Panatinaikos" klubu ilə qarşılaşdı. Hər iki matçda məğlub olan qəbələlilər avrokuboklarla vaxtından əvvəl vidalaşdı. Beləliklə, "Qəbələ" Roman Qriqorçukun rəhbərliyi altında ilk dəfə avrokubokların seçmə mərhələsində büdrədi. Bunadək ukraynalı mütəxəssis ardıcıl 9 dəfə mərhələ adlamağı bacarmışdı.

## ..."Qarabağ" klubu unutdurdu

Avropanın ən mötəbər klub turniri sayılan UEFA Çempionlar Liqasında (ÇL) 2017/2018-ci illər mövsümü Azərbaycan futbolu üçün tarixi oldu. Təsnifat mərhələlərində ardıcıl olaraq Gürcüstanın "Samtredia" (5:0, 1:0), Moldovanın "Şerif" (0:0, 2:1) və Danimarkanın "Kopenhagen" (1:0, 1:2) klublarını mübarizədən kənarlaşdıran "Qarabağ", nəhayət ki, azarkeşlərə ÇL-in qrup mərhələsi sevincini yaşatdı. Ağdam klubunun "ölüm qrupu"na düşməsi, "Çelsi", "Atletiko" və "Roma" kimi Avropa nəhənglərinin Bakıya gəlməsi isə futbolsevərlər üçün əlavə bayrama çevrildi. Həm "Roma", həm də "Atletiko" klublarına qarşı baxımlı oyun göstərən təmsilçimiz hətta ispanlardan hər iki qarşılaşmada xal almağı da bacardı. Bu isə, Çempionlar Liqasının son finalçısı olan "Atletiko"nun növbəti mərhələ arzusunu puç etdi.

Qrupu 2 xalla başa vuran "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov 2017-ci ili ağır və yaddaqalan il olduğunu vurğuladı: "Ötən il "Qarabağ" həm ölkə çempionu oldu, həm də ölkə kubokunu qazandı. Dekabrda Premyer Liqanı lider kimi başa vurmaq istəyimiz də yerinə yetdi. Bütün bu nəticələr 2017-ci ilin bizim üçün uğurlu keçdiyini deməyə imkan verir. Çempionlar Liqasının qrupuna düşməyi bacardıq. "Qarabağ"ın rəhbərliyinə, futbolçularına və azarkeşlərinə təşəkkür edirəm. Uğurlar bizi rahat etməməlidir, daha yüksək nəticələr uğrunda mübarizə aparmaq lazımdır. Bir neçə təşkilat tərəfindən "İlin məşqçisi" mükafatına layiq görülməyim mənim dövlətimiz, xalqımız və azarkeşlər qarşısında məsuliyyətimi birə-beş artırır. Lakin iki böyükhesablı məğlubiyyət məni çox məyus etdi. İngiltərənin "Çelsi" komandasına ev və səfər matçlarında uduzduq. Belə olmasını heç istəməzdim. Amma hadisələrə real yanaşmaq və obyektiv olmaq lazımdır. Futbolda belə hesablar olur".

İlk dəfə Azərbaycan klubu Gənclər Liqasının qrup mərhələsində mübarizə apardı. Bu, "Qarabağ"ın əsas komandasının ÇL-in qrupuna düşməsi nəticəsində baş verdi və 19 yaşlılardan ibarət kollektiv turniri 3 xalla başa vurdu. Gənclərimiz turnirdə üç qol vurdu. Hər üç qolun müəllifi Yaroslav Deda oldu.

## 8 klubundan 4-də yeni baş məşqçi

Premyer Liqanın 8 klubundan yarısı ilin gedişində baş məşqçi dəyişikliyi etdi. Bu baxımdan "Neftçi" və "Keşlə" daha fəal nəzərə çarpdı. "Ağ-qaralar"ı çalışdıran Elxan Abdullayev cari mövsümdə komandanı cəmi iki oyunda meydana çıxardı. Ardınca daha 2 tur Elşad Əhmədovun baş məşqçisi "Neftçi" sentyabrda Tərlan Əhmədova həvalə edildi.

Cari mövsümün ilk 10 turundan sonra Zaur Svanadze ilə vidalaşan "Keşlə"ni son 4 turda Ramiz Məmmədov meydana çıxardı. Qış fasiləsi yaranan kimi onu əvvəlki işinə qaytaran "Keşlə" rəhbərliyi ukraynalı Yuri Maksimovu baş məşqçi təyin etdi.

"Kəpəz"in uğursuz mövsüm keçirməsi Şahin Diniyevin noyabrda istefası ilə nəticələndi. Onu əvəzləyən Yunis Hüseynov Premyer Liqada hələlik 2 görüşdə Gəncə təmsilçisini meydana çıxardıb.

Ötən mövsüm I Divizionda olarkən Elman Sultanovun başçılığı altında oyunlara çıxan "Səbail" isə Premyer Liqaya yüksəldikdən sonra Samir Əliyevə tapşırıldı.









## Millimiz 10 xalla rekordu yenilədi

Təbii ki, ötən il azarkeşlər üçün əsas maraqlı məqam millimizin DÇ-2018-in seçmə mərhələsindəki oyunları oldu. Qeyd edək ki, Azərbaycan milli komandası turnirin C qrupunda Almaniya, Şimali İrlandiya, Çexiya, Norveç və San Marino komandaları ilə mübarizə aparırdı.

Seçmə mərhələyə uğurla başlayan milli komandamız 2016-cı ildə keçirdiyi 4 görüşdə 7 xal toplamaqla azarkeşləri xeyli ümidləndirmişdi. Əksər futbol azarkeşləri yığmamızın qrup ikincisi kimi növbəti mərhələyə vəsiqə qazanacağını düşünürdülər. Amma futbolçularımız 2017-ci ildə uğurlu çıxışın davamını gətirə bilmədilər. Robert Prosineçkinin yetirmələri ardıcıl məğlubiyyətlərlə turnir cədvəlinin 5-ci pilləsinə qədər endilər. Təmsilçimiz 2017-ci ildə Almaniya (1:4, 1:5), Şimali İrlandiya (0:1), Norveç (0:2) və Çexiya (1:2) yığmalarına məğlub olaraq azarkeşlərini məyus etdi. 6 oyundan 5-də uduzan komandamız Bakıda San Marino millisini böyük hesabla (5:1) məğlub etdilər. Bu, yalnız yeni rekord baxımından təsəlli oldu. Belə ki, millimiz tarixində ilk dəfə seçmə mərhələni 10 xalla başa vuraraq, Berti Foqtsun dövründəki 9 xallıq rekordu yenilədi.

Yeri gəlmişkən, millimizlə bağlı sevindirici məqam da oldu. Təmsilçimiz ilk dəfə böyük turnirə reytinq favoriti kimi qatılacaq. Belə ki, ilk dəfə keçiriləcək Millətlər Liqasının D qrupunda yer alacaq yığmamız 16 komanda arasında ən yüksək reytinqə sahibdir. Komandamızın Millətlər Liqasındakı rəqibləri yanvarın 24-də bəlli olacaq.

## Kapitanın milli karyerası başa çatdı

2001-ci ildən millimizin şərəfini qoruyan Rəşad Sadıqov oktyabrın 7-də sonuncu dəfə formanı geyindi. Lakin komanda yoldaşları seçmə mərhələdə Çexiya ilə Bakıdakı qarşılaşmada kapitanı uğurlu nəticə ilə yola sala bilmədilər (1:2). Beləliklə, yığmamızın rekordçusu olan Rəşad Sadıqov geridə qalan 16 il ərzində 111 görüşdə iştirak edib, aktivinə 5 qol yazdırdı.

## "Yeni baş məşqçinin qarşısına məqsəd qoymuşuq ki..."

DÇ-2018-in seçmə mərhələsi başa çatdıqdan sonra millimizin baş məşqçisi Robert Prosineçki ilə yeni müqavilə imzalanmadı. AFFA rəhbərliyi yığmalarımızın baş məşqçi vəzifəsinə yerli mütəxəssis gətirdi. Qurban Qurbanov noyabrın 3-də keçirilən AFFA İcraiyyə Komitəsinin iclasında yığmanın baş məşqçi vəzifəsinə təyin olundu. İclasdan sonra keçirilən brifinqdə AFFA-nın prezidenti Rövnəq Abdullayev fikirlərini bildirdi: "İcraiyyə Komitəsi üzvlərinin yekdil qərarı ilə Qurban Qurbanov yığmanın baş məşqçisi təyin olundu. Mən Qurban müəllimi təbrik edirəm və yeni işində uğurlar arzulayıram. Qurban müəllim milli ilə yanaşı, "Qarabağ"ı da çalışdıracaq. Millinin baza komandası da "Qarabağ" olacaq. Yığmanın əsas oyunçuları bu klubun şərəfini qoruduğundan, baş məşqçi həm klubda, həm də millidə eyni vəzifəni icra edəcək. Bu məsələ İcraiyyə Komitəsinin toplantısında çox müzakirə olundu. Sonda hamı Qurban müəllimin yığma ilə yanaşı, klubda da işini davam etdirməsinə səs verdi. Biz artıq proqram şəklində iş qurmağa çalışacağıq. Qurban Qurbanov, ən azı, 3 seçmə mərhələdə millinin başında olacaq. Yeni baş məşqçinin qarşısına məqsəd qoymuşuq ki, bütün oyunçuların hazırlığı bir mərkəzdən idarə olunsun".

AFFA ilə uzunmüddətli müqavilə imzalayan Qurban Qurbanovun göstərişi ilə aşağı yaş qrupu üzrə yığmalara da yeni baş məşqçilər gətirildi. 45 yaşlı mütəxəssisin məsləhətindən sonra Ramin Quliyevi U-17-yə, Zaur Həşimovu U-18-ə, Vüqar Məmmədi U-19-a gətirən AFFA "Qarabağ"ın kapitanı Rəşad Sadıqova isə U-21-lə yanaşı, yeni yaradılmış U-20 yığmasını həvalə etdi.

## Ömürlük futboldan uzaqlaşdırılanlar

Ötən il martın 16-da AFFA I Divizionla bağlı sərt qərarlar verdi. Belə ki, danışılmış oyunlardakı iştiraka görə, "Rəvan" və "Şərurspor" komandaları çempionatdan, bir neçə futbolçu və klub rəsmisi isə futboldan uzaqlaşdırıldı. Ən böyük "partlayış" noyabrın 25-də Premyer Liqada baş tutan "Neftçi" - "Keşlə" (3:1) oyunundan sonra oldu. "Neftçi" ilə ilkin razılıq əldə edən "Keşlə"nin futbolçusu Nizami Hacıyev və Mirhüseyn Seyidov həmin günün axşamı hüquq-mühafizə orqanları tərəfindən saxlanıldı. Çox keçmədən sərbəst buraxılan oyunçuların adları bukmeker kontorlarına pul qoyuluşunda hallandı. M. Seyidovun "Neftçi" ilə matçı qəsdən zəif keçirmələri ilə bağlı etirafı isə bir çox məqama aydınlıq gətirdi. Nəticədə, AFFA İntizam Komitəsi dekabrın 1-də Nizami Hacıyev və Mirhüseyn Seyidovu ömürlük futboldan uzaqlaşdırıldı. Cəmi 5 gündən sonra oyunların nəticələrinin manipulyasiyasında günahkar bilinən "Neftçi"nin məşqçisi Ağakişi Mehdizadənin futbol fəaliyyətinə ömürlük son qoyuldu.

## Digər "legionerlər"dən fərqlənən Araz Abdullayev

Hər il olduğu kimi, bu dəfə də legioner həyatı yaşayan azsaylı futbolçularımız ölkə xaricində çox qalmadılar. Apreldə "Boavişta"dan qalmaqallı şəkildə ayrılan Kamran Ağayev yeni mövsümə "Mlada"da başladı. Millimizin qapıçısı hər iki komandada "1 nömrə"yə çevrilməyi bacarmışdı. Lakin ənənəsini davam etdirən K. Ağayev Çexiyada da çox qalmadı və buyaxınlarda "Keşlə" klubu ilə müqavilə bağladı.

Cari mövsümün əvvəlinə qədər "Keşlə"nin formasını geyinən Rauf Əliyev avrokuboklarda da komandaya kömək etdikdən sonra Albaniyaya üz tutdu. "Kukesi"də olduqca uğurlu çıxış edən millimizin hücumçusu gözlənilmədən ilin sonunda öz istəyi ilə komandadan ayrıldı. Lakin FİFA-nın bir mövsümdə 3-cü klubda oynamaq qadağası səbəbindən hücumçu özünə komanda tapmaqda çətinlik çəkir.

Futbolun sirlərini Rusiyada öyrənən Emin Mahmudovla Ramil Şeydayev də Azərbaycana üz tutmalı oldular. E. Mahmudov bu mövsümün əvvəlində "Boavişta"nı "Neftçi"yə dəyişdi. R. Şeydayev isə ilin ilk yarısını icarə əsasında "Jilina"da keçirsə də, orada möhkəmlənə bilmədi. Nəticədə, "Qarabağ" yayda onu "Trabzonspor"dan icarəyə götürdü.

Legioner həyatı yaşayan oyunçularımızdan yalnız Araz Abdullayev hələlik ümidləri doğruldur. İlin əvvəlində "Neftçi"dən "Qəbələ"yə keçən yarımmüdafiəçi "qırmızı-qaralar"da çox qalmadı və yayda "Anortosis"lə müqavilə bağladı. Qısa müddətdə komandanın liderlərindən birinə çevrilən A. Abdullayev hazırda komandanın Kipr çempionatında liderlər qrupunda qərarlaşmasında böyük rol oynayır. Ümid edirik ki, digərlərindən fərqli, Araz qısa müddətdə geri qayıtmaz. Əksinə, xaricdə uğurlu çıxışını davam etdirərək, bizləri sevindirəcək.

***Rahib Səmədov***

# DÜNYA idmanı





## Makqreqor titulundan məhrum olub

Qarışıq döyüş növləri üzrə irlandiyalı döyüş ustası Konor Makqreqor yüngül çəkidə UFC çempionluğu titulundan məhrum olub. Buna səbəb idmançının uzun müddətdir ki, titulunu müdafiə etməməsidir.

UFC-nin rəhbəri Dana Uaytın sözlərinə görə, iki il ərzində döyüş keçirmədən titulu əldə saxlamaq digər döyüşçülərə qarşı ədalətsizlikdir. Konor Maqreqorun əldən verdiyi kəmərin aqibəti rusiyalı Həbib Nurməhəmmədov və amerikalı Toni Ferqusyon arasında döyüşdən sonra məlum olacaq. Döyüş aprelin 7-də Nyu-Yorkda keçiriləcək.

29 yaşlı Makqreqor qarışıq döyüş qaydalarına əsasən, indiyədək 24 döyüş keçirib. Onlardan 21-də qalib gəlib (18-də vaxtı başa çatmamış) və 3-də məğlubiyyətə uğrayıb. Onun UFC üzrə sonuncu döyüşü 2016-ci ilin noyabr ayında olub. Həmin döyüşdə o, ikinci raundda amerikalı Eddi Alvaresi texniki nokautla məğlubiyyətə uğradıb.

## İdmançının kələkbazlığı hamını təəccübləndirdi

ABŞ-ın Arizona ştatında marafon təşkilatçıları dələduzluq yolu ilə nəticə qazanmağa çalışan Kelli Eqnyu adlı atleti diskvlafikasiya ediblər.

"Across the Years" marafonunun rəsmi təşkilatçılarının yaydığı məlumata görə, Eqnyu növbəti dövrəni keçdikdən sonra start xəttinə qayıdıb və yeddi dəqiqəni tualetdə keçirib. Ordan çıxdıqdan sonra bir daha finiş xəttini keçib və marafonu davam etdirərək, aktivinə əlavə 1,5 km yazdırıb. Marafonda qayda pozuntularını araşdıran Derek Merfi sprinterlərin nəticələrini qeydə alan MMC timing təşkilatının nümayəndəsini şahid qismində dindirib.

Atletin bu kələyi ifşa olunduğundan ekspertlər onun digər nəticələrinə də yenidən baxmaq qərarına gəliblər. Məlum olub ki, 2015-ci ilin marafonunda Kelli Enqyu 48 saatlıq yürüşdə 88.5 kilometr qət edib. Maraqlısı odur ki, idmançı həmin yarışda da son yeddi saatı qaçmayıb.

## "Tanrıma minnətdaram"

Boks üzrə keçmiş dünya çempionu Rikardo Mayorqa idman karyerasını başa vurduğunu elan edib.

"Uşaq olanda anama söz vermişdim ki, boks üzrə dünya çempionu olacağam. İndiyədək rinqdə həvəskar kimi 112 döyüş keçirmişəm və onlardan 107-də qalib gəlmişəm. Peşəkar boksda isə 27 qarşılaşmadan sonra ən yüksək zirvələri fəth etmişəm.

Hesab edirəm ki, idman gənclər üçündür və mən özümü gənc adlandıra bilmərəm. Düşünürəm ki, əlcəkləri mıxdan asmağın vaxtı çatıb. Mən Tanrıma əldə etdiyim nailiyyətlər və tamaşaçıların alqışları üçün minnətdaram", - deyə tanınmış idmançı bildirib.

Qeyd edək ki, 44 yaşlı nikaraqualı boksçu karyerası ərzində 32 dəfə qalib olub və onlardan 26-nı nokautla edib. 10 dəfə məğlub olub və 1 döyüşü heç-heçə başa vurub.

## Güləşçi 7-8 tonluq maşını aşırıb

Amerikalı peşəkar güləşçi Braun Strouman 7-8 tonluq yük maşınını aşırıb.

Idmançı heç bir hiylə işlətmədən əvvəlcə bütün gücü ilə avtomobili yerindən tərpətməyə başlayıb. Dostları Braunun 7-8 ton ağırlığındakı yük maşınını hərəkət etdirdikdən sonra buraxacağını sanıb. Lakin o, hamını heyrətləndirərək avtomobili aşırmağa müvəffəq olub.

## Pele: "Qalib biz olacağıq"

Əfsanəvi braziliyalı futbolçu, üççat dünya çempionu Pele DÇ-2018-in favoritini açıqlayıb.

Əfsanəvi futbolçu Rusiyada keçiriləcək mundialda braziliyalıların qalib gələcəyi qənaətindədir: "Çempion olmaq üçün bütün imkanlarımız var. Son dünya çempionatında yaxşı oyunçularımız olsa da, təşkilatçılıq baxımından komanda zəif idi. Yığmanın hazırkı baş məşqçisi Tite bu kimi qüsurları aradan qaldıra bilib. Bu bizə gələcəyə inamla baxmağa imkan verir. Braziliya Dünya kubokunu qazana bilər. Qalib biz olacağıq".

Xatırladaq ki, futbol üzrə 2018-ci il dünya çempionatı iyunun 14-dən iyulun 15-dək Rusiyada keçiriləcək.

## Altı məşhurdan hansı seçiləcək?

Dünyanın 6 tanınmış atleti "Laureus" Dünya İdman Akademiyasının versiyasında "İlin idmançısı" nominasiyasına namizəd göstərilib. Bu idmançılar Kristofer Frum (velosiped), Rocer Federer (tennis), Lyuis Hemilton (Formula-1), Kriştanu Ronaldo (futbol) və Mo Faradır (atletika).

Qalib idmançının adı fevral ayının 21-də Monakoda açıqlanacaq.




*"Olimpiya dünyası" qəzetinin arxivindən*

**("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)**

## Futbolçunu qovan hakimin özü cəzalandırıldı

Fransa Futbol Federasiyası 1-ci Liqanın XX turu çərçivəsində keçirilən "Nant" - PSJ oyununda (0:1) futbolçunu vuran referi Toni Şapronu müvəqqəti olaraq hakimlikdən uzaqlaşdırıb.




Hakimin növbəti turda "Anje" - "Trua" görüşünə təyinatı ləğv edilib. Referi ilə bağlı yekun qərar araşdırmadan sonra veriləcək.

Qeyd edək ki, yanvarın 14-də baş tutan oyunun 90-cı dəqiqəsində "Nant"ın futbolçusu Dieqo Karlos Toni Şaprona toxunaraq onu yıxıb. Baş hakim isə oyunçunun ayağına zərbə vurub. Daha sonra yerdən qalxan ədalət təmsilçisi Dieqo Karlosa ikinci sarı vərəqə göstərərək meydandan qovub. Həmçinin PSJ-nin lehinə cərimə zərbəsi təyin edib.



**İdman saatı**

## İdman - həyatdır

***Idman insanın həyatında çox mühüm yer tutur. Belə ki, idman bədəni qüvvətləndirir, möhkəmləndirir, insanı dözümlü və iradəli edir. İdman və bədən tərbiyəsi ilə məşğul olmaq, həm də insanın əhval-ruhiyyəsini qaldırır, ona böyük sevinc bəxş edir. Əbəs yerə deməyiblər: "Sağlam bədəndə sağlam ruh olar".***

***Mütəxəssislərin fikrinə görə, sağlamlıqdan başqa, idman vasitəsilə müxtəlif problemlərdən də xilas olmaq mümkündür. Ancaq bunun üçün problemə uyğun olaraq idmanın saatını düzgün müəyyənləşdirmək vacibdir. Çünki müxtəlif saatlarda edilən idmanın orqanizmə təsiri də fərqli olur.***

### İdeal çəki

Arıqlamaq və ya ideal çəkidə qalmaq istəyirsinizsə, bunu mütləq səhər saatlarında etməlisiniz. Səhər yeməyindən qabaq edilən idman orqanizmin gün ərzində daha çox kalori xərcləməyinə kömək edəcək.

### Kökəlmək və ya əzələ yığmaq

İdmana müraciət etməyinizin səbəbi daha güclü, qüvvətli, əzələli olmaq istəyidirsə, deməli, sizin üçün ən uyğun vaxt axşam saatlarıdır. Mütəxəssislər, xüsusilə də, axşam yeməyindən sonra edilən idmanın bu baxımdan yararlı olduğunu iddia edirlər.

### Yuxu problemi

Yuxu problemindən əziyyət çəkirsinizsə, mütləq idmana başlanmalısınız. Yatmazdan əvvəl 15-30 dəqiqə arası yüngül idman hərəkətləri etsəniz, asanlıqla yuxuya gedəcəksiniz. Yuxudan əvvəl edilən yüngül idman hərəkətləri daha rahat yatmağa və gümrah oyanmağa yardım edir.



### Stresslə mübarizə

Stress bir çox xəstəliyin əsas səbəblərindən biridir. Stresslə mübarizə aparmaq üçün mütləq idman etmək lazımdır. Tutaq ki, vacib bir iclasdan və ya iş görüşündən əvvəl yüngül idman hərəkətləri edə bilərsiniz.

Bundan başqa, hər birimiz işdə, nəqliyyatda, cəmiyyətdə müxtəlif hadisələrlə qarşılaşırıq və ya bunun haqqında eşidirik. Gündə 30-40 dəqiqə yürüş etmək, gimnastik hərəkətlər etmək sizi bir az da olsa, stressdən və gərginlikdən azad edəcək.

İdman edin və sağlam, gümrah yaşayın.

***Səadət Hakıyeva***

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19